# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


SƏS

№ 025 (7193)

12 fevral 2025-ci il.
Qiymәti 60 qәpik


## Əlaqələndirmə Qərargahının növbəti iclası Xankəndi şəhərində keçirilib



3

# "Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir"



2

# USAİD-i terrorla nə bağlayır?

*Ziyankar təşkilat haqqında dəhşətli faktlar*





5

## Müəllimlərin sayının azalması təhsildə keyfiyyətə necə təsir edəcək?



8

## Təndir çörəyinin ətri: Unudulmağa qoymayaq!



11

## XİN: "Ermənistanı sülhə nail olmaq perspektivlərini sarsıdan bəyanat və hərəkətlərdən imtina etməyə çağırırıq"



3

## Azərbaycanda işsizliyə görə kimlər müavinət ala bilər?



8

## Mobil quldurluq sistemi: Şirkətlər abonentləri necə soyurlar?



9

# "Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir"

## Prezident İlham Əliyev Bakıda metronun "Gənclik" stansiyasının yaxınlığında yaradılan yeni parkın açılışında iştirak edib



Azərbaycanın hər yerində olduğu kimi, paytaxt Bakımızda da parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində tədbirlər davamlı olaraq reallaşır. Yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Bakıda metronun "Gənclik" stansiyasının yaxınlığında "Antenna" sahəsi adlanan ərazidə yeni yaradılan parkın açılışı da görülən işlərin davamıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni yaradılan parkın açılışında iştirak ediblər. Paytaxtımızın daha da müasirləşdirilməsi, abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən Nərimanov rayonunda - metronun "Gənclik" stansiyasının yaxınlığında, Vaqif prospekti, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov və Nəsib bəy Yusifbəyli küçələrinin kəsişməsində salınan yeni parkdır. Dövlətimizin başçısı və birinci xanım parkda yaradılan şəraitlə tanış olublar. "Antenna" sahəsi kimi tanınan bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb. Parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və binada bərpa işləri aparılıb. Yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunub. Həmçinin burada fəvvarə də quraşdırılıb. Bu da istirahət məkanına əlavə gözəllik verir. Müasir istirahət kompleksinin ərazisinin 14 hektarında yaşıllıq sahələri salınıb, 20 mindən çox ağac və kol əkilib. Parkda avtomat suvarma sistemi, su və yanğın çənləri, nasosxana, təhlükəsizlik müşahidə kameraları quraşdırılıb. Həmçinin işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulub. Parkda piyada və velosiped yolları çəkilib, uşaq-əyləncə və açıq hava şəraitində müasir məşq qurğuları ilə təchiz edilmiş idman meydançaları yaradılıb. Yeni parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirən yeraltı keçid də inşa olunub. Bu da sakinlərin təhlükəsiz və rahat hərəkətinə şərait yaradır.

### NADİR DİZAYNDA QURULAN İSTİRAHƏT MƏKANI

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulub. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.

Yeni istifadəyə verilən park da paytaxtımızın daha da gözəlləşməsi, şəhərdə yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır. Bakının simasına yeni-yeni bənzərsiz naxışlar vurulub, gözəl park və xiyabanlar, geniş prospektlər, möhtəşəm və modern binalar, meydanlar və körpülər paytaxtımızın ayrılmaz atributları sırasındadır. Qədimlik və müasirliyin heyrətamiz harmoniyası şəhərimizə özünəməxsus yaraşıq verir. Paytaxtımız hər tərəfli gözəlləşir. Hər yerdə aparılan-abadlıq quruculuq işləri onun simasını köklü şəkildə dəyişib, infrastruktur təminatı, kommunal xidmətlərin keyfiyyəti yaxşılaşıb, əhalinin rifahı əhəmiyyətli dərəcədə yüksəlib. Dünyanın qədim neft sənayesi mərkəzi olan paytaxt Bakı da qısa müddətdə ən iri şəhərlərdən birinə çevrilərək özünün təkrarolunmaz simasını əldə edib. Bakıda həyata keçirilən ardıcıl inkişaf prosesi şəhərimizin tarixi ilə müasirliyini özündə birləşdirərək onun tamamilə yeni bir simasını təqdim edir.

Bildiyimiz kimi, ötən il Bakının Səbail rayonunda yerləşən "Xaqani" bağında və ətraf ərazilərdə abadlıq-yenidənqurma işləri aparılıb. Bakının Səbail rayonunda yerləşən "Xaqani" bağının mövcud ərazisi genişləndirilib, istirahət guşəsinin ətrafındakı Rəsul Rza, Qoqol və Xaqani küçələrində avtomobil yolları ləğv edilərək piyadaların istifadəsinə verilib. Ümumi ərazisi 1,4 hektar olan bağın ərazisində yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb və ətrafda olan yaşayış binalarında təmir-bərpa işləri aparılıb. Bu, dövlətimizin başçısının Bakı şəhərində parkların, xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən abadlaşdırılan növbəti istirahət guşələrindən biridir. Şəhərin mərkəzində yerləşən bağda sakinlərin istirahəti üçün qısa müddətdə gözəl şərait yaradılıb.

Bakının qədim tarixi memarlıq nümunələri bərpa edilir və müasir binalar tikilib istifadəyə verilir. Bu işlərin hamısı şəhərə daha çox gözəllik və kolorit verir, məhz bunun sayəsində Azərbaycan paytaxtı insanların həyatı və asudə vaxt keçirməsi üçün rahat məkana çevrilir. Yeni parkların salınması və mövcud olanların yenidən qurulması ətraf mühitin sağlamlaşdırılması işinə mühüm töhfə verir.

Xatırlatmaq yerinə düşər ki, Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Ərazisi 4,1 hektar olan park XX əsrin 50-ci illərində salınıb. Ötən müddətdə bu park gəzinti və əyləncə baxımından şəhər sakinləri üçün sevimli məkana çevrilib. 1960-cı illərdə yaxınlıqda metro stansiyasının tikilməsi parka marağı daha da artırıb. Şəhərimizin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun olmayan park nadir dizaynda yenidən qurulub. Burada müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılıb, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydanının yenidən qurulması işləri həyata keçirilib. Parkın ərazisində yeni yaşıllıq sahələri yaradılıb, istismara yararsız, parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda, parkın yeni layihəsinə uyğun təmir edilib, o cümlədən yeni işıq dirəkləri, eləcə də idman qurğuları və uşaq əyləncə meydançası yaradılıb.

### AZƏRBAYCANIN MEŞƏ TİPLİ FÜSUNKAR PARKLARI

Paytaxtımızın demək olar ki, hər bir guşəsində yeni parkların, istirahət məkanlarının salınması diqqəti cəlb edir. Bakının Xətai rayonu ərazisində yaradılan "Gənclik" parkı da öz görkəminə yeni bir ab-hava qatıb. Bir zamanlar baxımsız ərazi olan bu yerin indi həmin görkəmindən əsər-əlamət qalmayıb. Paytaxtın Xətai rayonunda yerləşən ərazi yenidən qurularaq Azərbaycanın meşə tipli füsunkar parklarından birinə çevrilib.

Hələ "Gənclik" parkı yeni salınarkən Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak edən dövlətimizin başçısı parkın abadlaşdırılması, təbii mənzərəsinin qorunub saxlanılması, burada əyləncə və idmanla məşğul olmaq üçün şəraitlə yanaşı, iaşə obyektlərinin qurulması, insanların asudə vaxtlarının səmərəli təşkili məqsədilə zəruri infrastrukturun yaradılmasına dair tapşırıqlar vermişdi. Üzərindən qısa zaman ötdükdən sonra, tapşırıqlar tam şəkildə icra olundu və nəticədə yeni istirahət mərkəzi paytaxtın ən gözəl məkanlarından birinə çevrildi. Parkda şəhər sakinlərinin və qonaqların istirahəti üçün müxtəlif infrastruktur yaradılıb. Buraya üz tutanlar həm yay, həm də qış aylarında paytaxt Bakının, o cümlədən Xəzər dənizinin əsrarəngiz mənzərəsini də seyr edə bilərlər.

Qeyd edək ki, Gənclik parkı 43 hektar ərazini əhatə edir. Burada 300 minədək ağac və kol var. Həmçinin parkın ərazisində yaşıllıqlar salınıb. Bir sözlə, sakinlər və qonaqlar parkda asudə vaxtlarını səmərəli keçirə bilirlər. İstirahət məkanında həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri yaradılıb, attraksion quraşdırılıb. Həmçinin fiziki məhdudiyyətli şəxslər üçün idman və əyləncə sahəsi də yaradılıb. Burada bağlı və açıq futbol meydançaları inşa olunub. Parkda ziyarətçilər üçün piknik məntəqələri də var. Park ərazisinin genişliyi nəzərə alınaraq istirahət edən şəxslərin rahatlığı üçün müvafiq məlumatlandırıcı və istiqamətləndirici lövhələr quraşdırılıb. Ərazinin ən görməli yerlərindən biri də parkda yaradılan göldür.

Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Fond ölkəmizdə yeni yaşıllıqların salınması və mövcud yaşıllıq sahələrinin qorunması üzrə layihələr icra edir. Bu sahədə Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var.

### EKOLOJİ FƏLAKƏT MƏNZƏRƏSİ TƏMİZ ZONAYA ÇEVRİLİB

Son illər Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar Azərbaycan dövlətinin inkişafına, onun sosial-iqtisadi bazasının yüksəlməsinə, regionların sosial-iqtisadi inkişafına, insanların rifah halının yüksəldilməsi istiqamətində islahatların həyata keçirilməsinə və s. yönəlmişdir. Bu Sərəncamlar dövlətin təməlinin daha da möhkəmlənməsinə, Azərbaycanın dünyaya inteqrasiya tempinin artmasına töhfələrini verir. Azərbaycanda insanların sağlamlığı, rahatlığı, firavan həyatı da daim diqqətdə saxlanılır. Möhtərəm Prezidentin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Bu inkişaf göstəriciləri insanlarda qəti bir əminlik formalaşdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlara və zəfərlərə imza atacaq.

Ölkə həyatı üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramları hazırlanıb, işlək mexanizmlər əsasında həyata keçirilib. Ən müxtəlif sahələrdə intibah prosesi geniş vüsət alıb. Respublikanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli tərəqqi prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri-neft sektorunun inkişafı yolu ilə regionların balanslı və davamlı inkişafının sürətləndirilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva edib. Bu gün Azərbaycan nümunəvi inkişaf modelinə malik olan ölkəyə çevrilib.

***Zümrüd BAYRAMOVA***



## "Konstitusiya və Suverenlik İli" ilə bağlı Tədbirlər Planı təsdiqlənib - SƏRƏNCAM

Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirəcək. Eyni zamanda, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Əlaqələndirmə Qərargahının növbəti iclası Xankəndi şəhərində keçirilib

***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xankəndi şəhərində Qərargahın növbəti iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə quruculuq və bərpa işlərinin geniş vüsət aldığını qeyd edib. Dövlətimizin başçısının təsdiq etdiyi ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun olaraq həyata keçirilən irimiqyaslı layihələr çərçivəsində müasir infrastruktur qurulur, keçmiş məcburi köçkünlərin rahat şəkildə öz yurdlarına qayıtmaları və məskunlaşmaları üçün yaşayış məntəqələri salınır, ərazilərdə zəruri şərait yaradılır.





Otuz ilə yaxın davam edən işğal dövrünün geridə qaldığını, 44 günlük Vətən müharibəsi və uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyinin tam bərpa edildiyini bildirən Qərargahın rəhbəri bu tarixi nailiyyətin Ali Baş Komandanın siyasi müdrikliyinin, qətiyyətinin, Azərbaycan dövlətinin gücünün, xalqımızın birliyinin və iradəsinin təcəssümü olduğunu vurğulayıb.

Dövlətimizin başçısı tərəfindən işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın milli prioritetlərdən biri kimi müəyyən edildiyi, bu sahədə görülən işlərin daim nəzarətdə saxlanıldığı iclas iştirakçılarının diqqətinə çatdırılıb. Qeyd edilib ki, Böyük Qayıdışın vaxtında və keyfiyyətli şəkildə təmin edilməsi məqsədilə müəyyənləşdirilmiş hədəflərə nail olmaq üçün bütün resursların səfərbər edilməsi, bərpa-quruculuq layihələrinin əlaqəli və planlı şəkildə icrası və vaxtında təhvil verilməsi mühüm əhəmiyyətə malikdir.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası istiqamətində, habelə Proqram çərçivəsində əhalinin dayanıqlı məskunlaşması və məşğulluğunun təmin edilməsi, iqtisadi fəallıq və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması sahələrində görülən işlər barədə məlumatlar təqdim olunub.

Böyük Qayıdışın əsas komponentlərindən biri olan dayanıqlı məskunlaşmanın təmin edilməsi çərçivəsində işğaldan azad olunmuş ərazilərə geri qayıtmış keçmiş məcburi köçkünlər, dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsilalanlar da daxil olmaqla, həmin ərazilərdə hazırda 40 minə yaxın insanın yaşadığı və fəaliyyət göstərdiyi diqqətə çatdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə məskunlaşmanın dayanıqlı olması üçün aparılan bərpa və quruculuq işləri ilə yanaşı, köçürülən əhalinin məşğulluğunun təmin olunması istiqamətində də zəruri işlərin görüldüyü bildirilib. Bununla yanaşı, əhali arasında təhsil və peşə bacarıqlarının artırılması üçün müxtəlif təlim və peşə kursları təşkil edilir. Əlverişli iqlim mühitinə və coğrafi şəraitə malik Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar, sənaye və turizm sahələrinin inkişafı baxımından böyük imkanların olduğu qeyd edilərək, məskunlaşma prosesi ilə paralel olaraq, istehsal və emal, ticarət, xidmət, sənaye müəssisələrinin qurulduğu, müxtəlif iqtisadi fəaliyyət sahələrinin yaradıldığı, dövlətimizin başçısının sərəncamlarına uyğun olaraq ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün maliyyə resurslarına çıxış imkanlarının genişləndirildiyi, vergi və gömrük güzəştlərinin, həmçinin digər stimullaşdırıcı mexanizmlərin tətbiq olunduğu iclas iştirakçılarının diqqətinə çatdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə, o cümlədən Ağdam və ”Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında ümumilikdə 400-dən çox müəssisənin fəaliyyət göstərdiyi, artıq Ağdam Sənaye Parkındakı müəssisələrdə istehsal olunan məhsulların ixracına başlanıldığı vurğulanıb.





Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin ərazilər üzrə xüsusi nümayəndəliklərinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə məruzələr dinlənilib. İclasın sonunda Böyük Qayıdışla bağlı görülən işlərin mühüm əhəmiyyəti, məqsədlərə çatmaq üçün bütün imkanların səfərbər olunmasının zəruriliyi bir daha iclas iştirakçılarının diqqətinə çatdırılıb, Azərbaycan Respublikası Prezidentinin Əlaqələndirmə Qərargahı qarşısında qoyduğu vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıqlar verilib. Səfər çərçivəsində Xankəndi və Şuşa şəhərləri ərazilərində bir sıra obyektlərə baxış keçirilib.

# XİN: ”Ermənistanı sülhə nail olmaq perspektivlərini sarsıdan bəyanat və hərəkətlərdən imtina etməyə çağırırıq”

**“Ermənistan baş nazirinin fevralın 10-da ”Armenpress”də dərc olunmuş məqaləsində Azərbaycanın Ermənistana qarşı hücuma hazırlaşdığı və Qərbi Azərbaycan İcmasının məqsədləri ilə bağlı iddiaları, eləcə də bir çox digər əsassız fikirləri reallığı təhrif etmək və dünya ictimaiyyətini yanıltmaq məqsədi daşıyır.**



Maraqlıdır ki, hərbi potensiala sahib olmaq hüququnu müdafiə edən baş nazir 30 illik hərbi işğaldan əlavə, üçtərəfli Bəyanata əsasən üzərinə götürdüyü öhdəliklərə baxmayaraq, 44 günlük müharibə bitdikdən sonra üç il ərzində Azərbaycan ərazisində ağır silahlarla təchiz edilmiş on mindən çox hazırlıqlı silahlı birləşməni saxlayan ölkəni təmsil edir.”

Bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistanın baş naziri Nikol Paşinyanın ”Armenpress” məqaləsində iddiaları ilə bağlı şərhində yer alıb. A.Hacızadə bildirib ki, 44 günlük müharibə başa çatdıqdan sonra Ermənistanın hərbi xərcləri təqribən üç dəfə artaraq 2021-ci ildə təxminən 600 milyon dollardan 2024-cü ildə 1,6 milyard dollara çatıb. Üstəlik, bu yaxınlarda imzalanmış hərbi müqavilələrə görə, Ermənistan əsasən Azərbaycanın ərazilərinə uzaq məsafəli zərbələr endirə biləcək hücum silahları əldə etməkdədir. Ermənistan Konstitusiyasında və hüquqi aktlarında davam edən ərazi iddialarını, həmçinin revanşizmin artması faktını nəzərə alaraq, Ermənistanın hərbi potensialının artırılmasının əsaslandırılması qeyri-səmimidir və Azərbaycanın təhlükəsizliyinə birbaşa təhdiddir.

Bundan əlavə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, Qaçqınların Statusu haqqında Konvensiya və digər mühüm beynəlxalq aktlarda təsbit edilmiş qayıdış hüququna əsaslanaraq əsas məqsədləri qovulduqları torpaqlara təhlükəsiz, ləyaqətlə qayıdış olan Qərbi Azərbaycan İcmasının fəaliyyəti və məqsədləri haqqında Ermənistanın iddiaları tamamilə əsassızdır. Ermənistan baş nazirinin müxtəlif bəhanələrlə, o cümlədən icmanın bəyan olunmuş məqsədlərinin yanlış təfsir edilməsi ilə bu hüququ danması bir daha bu ölkənin siyasətinin bir vaxtlar azərbaycanlıların ölkə əhalisinin əsas hissəsini təşkil etdiyi Ermənistanda hazırda azərbaycanlıların olmamasına gətirib çıxaran qəddarlığının səviyyəsini göstərir.

Təəssüf ki, Ermənistan baş nazirinin 2022-ci il Praqa görüşünə, 1991-ci il Alma-Ata Bəyannaməsinə, sülh sazişi layihəsinin Ermənistanın həqiqətən Azərbaycana qarşı heç bir iddiasının olmadığını və olmayacağını təsbit etmək üçün nəzərdə tutulan bəndlərinə istinadlar məhz N.Paşinyan tərəfindən bir neçə ay sonra - 2023-cü ilin sentyabrında Azərbaycan ərazilərindəki qondarma rejimin ”müstəqilliyi” ilə bağlı təbrik mesajı göndərilən zaman, habelə Ermənistanın konstitusiyasında yer alan ərazi iddialarına və Alma-Ata Bəyannaməsinə qoşulan zaman edilmiş qeyd-şərtlərə göz yumması nəticəsində heçə endirilib.

Mətbuat katibi qeyd edib ki, hətta bu gün də müharibə cinayətlərində ittiham olunan şəxslərin məhkəmə prosesini alqışlamaq əvəzinə, bu məhkəməni ”səhnələşdirilmiş” adlandıran Ermənistan onilliklər ərzində səbəb olduğu yaraları sağaltmaqda və bu prosesin üzə çıxara biləcəyi həqiqətlə üzləşməkdə maraqlı deyil. Üstəlik, Ermənistan öhdəliklərinin yerinə yetirilməsi, o cümlədən Azərbaycan ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyaların açılması sahəsində əməli addımlar atmaq əvəzinə, diqqəti bu prosesdən yayındırır. Bu istiqamətdə praktiki addımlarla irəliləmək əvəzinə, Ermənistanın mahiyyətcə əhəmiyyəti olmayan təkliflər irəli sürməsi anlaşılmazlıqlara gətirib çıxarır və reallıqları təhrif edir.

”Baş nazirin canfəşanlıqla irəli sürdüyü silahlara nəzarət mexanizmlərinin yaradılmasına gəldikdə isə, 30 ildən artıq müddətdə Ermənistanın özünün iştirak etdiyi silahlara nəzarət mexanizmlərini kobud şəkildə pozduğu və deqradasiya etdiyi, hərbi texnika və silahların böyük hissəsini beynəlxalq silahlara nəzarət mexanizmlərindən gizlətdiyi, onları bizim ərazilərimizdə qanunsuz yerləşdirdiyi yaxşı məlumdur. Beynəlxalq müqavilələrə bu cür yanaşma Ermənistanın mövqeyinin qeyri-səmimiliyi barədə nəticə çıxarmağa imkan verir.

Biz qətiyyətlə Ermənistanı sülhə nail olmaq perspektivlərini sarsıdan bəyanat və hərəkətlərdən imtina etməyə çağırırıq”, - deyə A.Hacızadə vurğulayıb.

# Milli dəyərlər üzərində qurulan müasir Azərbaycan



Milli-mənəvi dəyərlərimizin qorunması, onların müəyyən bir çərçivədə təbliği əsas məsələlərdən biri kimi hər bir azərbaycanlını düşünməyə vadar edir. Tarixin müxtəlif illərində milli-mənəvi dəyərlərimiz meyar olaraq, xalqın milli düşüncəsinə, onun bir vətəndaş kimi formalaşmasına təsirini göstərmiş, bu gün də yetişən nəsil, məhz bu prosesin içərisində özünü, Azərbaycançılıq məfkurəsini dərk edərək, mövqeyini müəyyənləşdirir. Sözsüz ki, mənəvi dəyərlərimiz mənəviyyatımızı yaşadan dəyərlərin geniş bir məkanda təbliği əsasında reallaşır. Milli-mənəvi dəyərləri ilə tarixə söykənən Azərbaycan əsrlərdən bizə gəlib çatan abidələri, daş yaddaşı, milli əxlaqi dəyərləri, milli mədəniyyəti ilə yüksək məfkurəyə malik olduğunu bir daha göstərir. Bu ali dəyərlər milli mövcudluğumuzun, bir xalq olaraq yaşam tərzimizin, milli kimliyimizin göstəricisi, fərdi və fərqli modelimizdir. Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan milli-mənəvi dəyərləri qoruyub saxlamaq hər bir azərbaycanlının müqəddəs, mənəvi borcudur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi ”Milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir və mən dəfələrlə demişəm ki, müasir müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Əminəm ki, biz bu dəyərləri qoruyub saxladıqca, dövlətimiz daha da qüdrətli olacaq, xalqımız da əbədi azad, müstəqil xalq kimi yaşayacaq”.

**”AZƏRBAYCANLILAR HƏMİŞƏ DÜNYAYA AÇIQ OLUBLAR, AMMA ÖZ MƏNƏVİ KODEKSİNİ HƏMİŞƏ HƏR ŞEYDƏN ÜSTÜN TUTUBLAR”**

Təbii ki, Avropa ailəsinin üzvü olan Azərbaycanın iqtisadi inkişafı, ölkədə hökm sürən siyasi sabitliyi, suveren, müstəqil dövlət olmasının məntiqi nəticəsidir ki, bütün qapıları açaraq, sərhədləri aşır, qədim köklərə malik irsini, xəzinəsini dünyaya göstərə bilir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin milli-mənəvi irsimizin inkişaf etdirilməsi istiqamətində bir-birinin ardınca imzaladığı sərəncamlar bu sahəyə ayrılan diqqətin bariz nümunəsidir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində ölkəmiz dünyada gedən qloballaşma prosesində milli-mənəvi dəyərləri qoruyub saxlayır, milli ideologiya, azərbaycançılıq məfkurəsi əsas aparıcı xətt olaraq təbliğ edilir. Dövlət başçısının qeyd etdiyi kimi, ”Biz nəsildən-nəslə əsrlər boyu bu milli ideologiyamızı, milli xüsusiyyətlərimizi ötürürdük və beləliklə, özümüzü assimilyasiyadan qoruyurduq, kənar təsirdən qoruyurduq. Azərbaycanlılar həmişə dünyaya açıq olublar, amma öz mənəvi kodeksini həmişə hər şeydən üstün tutublar. Bir halda ki, azad olmadığımız dövrdə, əsrlər boyu həm müstəmləkə, həm başqa ölkələrin tərkibində yaşadığımız dövrdə əgər biz bu dəyərləri qoruyub saxlamışıqsa, indi, əlbəttə, biz bu dəyərləri qoruyub saxlamalıyıq”.

Vaxtilə 70 il sovet imperiyasının tərkibində yaşadığımız zaman təbliğat mexanizminin, təqdimatların qarşısına sədd çəkilsə də, məxfi arxivlərin araşdırılmasına imkan verilməsə də bu gün müstəqil, suverən dövlət olan Azərbaycan əsrlərlə formalaşmış zəngin irsini dünya xalqlarına təqdim edərək, onları təəccübləndirməklə yanaşı, bu cəmdə Azərbaycan vətəndaşının varlığını nümayiş etdirir. Əsrlərin, qərinələrin sorağıdır, bu dəyərlər. ”İndi Azərbaycan müstəqildir və müstəqil siyasət aparır”, - deyən dövlət başçısı bildirib ki, heç bir kənar qüvvə bizim işimizə qarışa bilməz: ”Düzdür, belə cəhdlər olub və ola bilər ki, olacaq. Ancaq bu cəhdlər heç bir nəticə verməyib və verməyəcək. Ancaq digər çağırışlar var, digər məsələlər var ki, biz gənclərimizi bundan sonra da mütləq vətənpərvərlik əsasında tərbiyə etməliyik. Vətənə bağlılıq, Vətənə sevgi, Vətən maraqlarını, dövlət maraqlarını hər şeydən üstün tutmaq hər bir gəncin borcudur”. Milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin dərindən öyrənilməsi və araşdırılması müasir cəmiyyətimizin prioritet istiqamətlərindən biridir. Tarixi təcrübə də göstərir ki, öz soykökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, tarix səhnəsindən birdəfəlik silinmək təhlükəsi ilə üz-üzə qalmışlar.

**”BİZİM BAYRAMLARIMIZ, ADƏT-ƏNƏNƏLƏRİMİZ HƏR BİRİMİZ ÜÇÜN ƏSAS DƏYƏR OLMALIDIR”**

Mənəvi dəyərlər xalqın dünyagörüşünün izahı deməkdir və bir növ xalqın pasportudur. Xalqımız əsrlərə söykənən dəyərləri ilə fəxr edir. Əlbəttə ki, hər bir xalqın, millətin mövcudluğu onun adət-ənənələrinə bağlılığından asılıdır. Azərbaycan xalqı məhz milli-mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu bugünədək qoruyub saxlayıb. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli, mənəvi, dövlətçilik irsinə sahib olmasıdır. Milli dövlətin formalaşmasında, güclü və əbədiyaşar olmasında onun mənəvi əsaslarının milli dəyərlərlə səsləşməsi böyük əhəmiyyət kəsb edir. Bildirməliyik ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesi bizim ölkədən də yan keçməyib. Buna baxmayaraq, biz qloballaşma adı altında öz milli-mənəvi dəyərlərimizi unutmamalı, bu dəyərlərə sadiq olmalıyıq. Milli-mənəvi dəyərləri hər şeydən üstün tutulmalı, bu dəyərlər istənilən məqamda müdafiə edilməli, qorunmalıdır. Qoballaşma digər xalqlara məxsus dövlət-din modellərinin, adət-ənənələrinin, milli mentalitetimizə xas olmayan dəyərlərinin ölkəmizə gətirilməsi deyil. ”Milli dəyərlər təkcə əcdadlar qarşısında bizim mənəvi borcumuz deyil, eyni zamanda, ölkəmizi daim müstəqil saxlamaq, ölkəmizi daim kənar təsirdən qorumaq və nəsillər arasındakı o mənəvi ipləri qırmamaq üçün bu, mütləq lazımdır. Çünki bizim çox zəngin mədəniyyətimiz, tariximiz var, ədəbiyyatımız, ana dilimiz var. Ana dilimiz də bax, bu milli dəyərlərin tərkib hissəsidir. Biz azad olmadığımız dövrdə onu qorumuşuq... Bütün bu amillər, o cümlədən bizim bayramlarımız, adət-ənənələrimiz hər birimiz üçün əsas dəyər olmalıdır. Bax, belə olsa, Azərbaycan həmişə müstəqil olacaq və həmişə uğur qazanacaq”, - deyə Cənab Prezident bildirib.

Dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü dil siyasəti Azərbaycan dilinin inkişafına öz töhfələrini verir. Dövlətimizin başçısının ”Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”, ”Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında”, ”Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında”, ”Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında”, ”Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” sərəncamları, ”Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür. Hər bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşı olan dili kimliyimizi təsdiq edir. ”Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, bir millət kimi qoruyub... Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyacı yoxdur. Biz əsrlər boyu dilimizi qorumuşuq, bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik. Digər tərəfdən, gənc nəsil imkan verməməlidir ki, ana dilimizə yad kəlmələr daxil olsun. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək, bu bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır”, - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib.

***ZÜMRÜD BAYRAMOVA***

# USAİD-i terrorla nə bağlayır?

## Ziyankar təşkilat haqqında dəhşətli faktlar

***Avropa Birliyinin ənənəvi olaraq ÜDM-nin təxminən 1%-ni təşkil edən ümumi büdcəsi yaşıl keçiddən müdafiəyə qədər geniş çeşidli tələblər çərçivəsində gərginlik altındadır. Trampın ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) proqramlarının dondurulduğunu elan etməsindən sonra Avropa İttifaqı xarici yardım xərclərinə yenidən baxacağını planlaşdırır. Bloomberg bu barədə bazar ertəsi, fevralın 10-da yazıb. Qeyd olunur ki, ənənəvi olaraq ÜDM-in təxminən 1%-ni təşkil edən Aİ-nin ümumi büdcəsi bütün prioritetlər üçün kifayət etmir. Avropa Komissiyası (AK) buna görə də yardımını yenidən təşkil etmək istəyir, bunu tərəfdaşlar üçün daha cəlbedici ”hədəf” edir.***

Nəşrin yazdığına görə, Aİ öz strateji maraqlarını təmin etmək üçün xarici yardımı yenidən strukturlaşdırmağa, o cümlədən həmfikir ölkələrlə ittifaqları gücləndirməyə, xammala çıxışı təmin etməyə və miqrant axınının qarşısını almağa çalışır. Birlikdə Aİ və onun üzv dövlətləri inkişaf və humanitar proqramlar üçün verilən ən böyük beynəlxalq yardımın payına düşür (2023-cü ildə təxminən 96 milyard avro (99 milyard dollar)). Birləşmiş Ştatlar bu məqsədlər üçün ümumilikdə 72 milyard dollar ayırıb ki, bunun da 40 milyardı USAİD vasitəsilə həyata keçirilib. Önümüzdəki həftələrdə AK 2028-ci ildən 2034-cü ilə qədər növbəti yeddi illik büdcəsini təkmilləşdirmək üçün ideyaları açıqlayacaq. Avropa Komissiyasının planı Trampın hər il on milyardlarla dollarlıq xarici yardım paylayan ABŞ Beynəlxalq İnkişaf Agentliyini (USAİD) ləğv etmək qərarı ilə üst-üstə düşür.















Xatırladaq ki, yanvarın 20-də ABŞ prezidenti Donald Tramp bütün xarici yardım proqramlarının onun siyasi məqsədlərinə uyğun olub-olmadığını müəyyən etmək üçün yoxlanılana qədər 90 gün müddətinə dayandırılması barədə sərəncam imzalayıb. Ukraynadakı USAİD-ə bütün layihələri və onlara xərcləmələri dayandırmaq əmri verilib. Ağ Ev bu yaxınlarda USAİD-də sui-istifadələrin siyahısını açıqlayıb. USAİD-in bu siyahısına Qvatemalada cinsiyyətin dəyişdirilməsi cərrahiyyəsinə xərclənən 2 milyon dollar da daxildir.

ABŞ prezidenti Donald Trampın administrasiyası ABŞ Beynəlxalq İnkişaf Agentliyində (USAID) sui-istifadələrin siyahısını dərc edib. Bu barədə Ağ Evin press-relizində deyilir. ”Onilliklər ərzində ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) Amerika vergi ödəyiciləri qarşısında cavabdeh olaraq qalır, eyni zamanda, faktiki olaraq heç bir nəzarət olmadan, köklü bürokratların bəyəndiyi mənasız və bir çox hallarda zərərli layihələrə böyük məbləğdə pul ayırır”, - Ağ Ev bildirib.

### USAİD-in sui-istifadələr siyahısına aşağıdakı xərclər daxildir:

Vyetnamda elektriklə işləyən avtomobillərə 2,5 milyon dollar;

Serbiyanın iş yerində və biznes icmalarında bərabərliyi və inklüzivliyi təşviq etmək üçün 1,5 milyon dollar;

Misirdə turizmin maliyyələşdirilməsinə 6 milyon dollar;

Suriyadakı əl-Qaidə ilə əlaqəli yaraqlılara göndərilən yüz minlərlə quru yemək;

Talibanın xeyrinə olan Əfqanıstanda misli görünməmiş xaşxaş becərilməsi və heroin istehsalını dəstəkləmək üçün istifadə olunan suvarma kanallarını, təsərrüfat avadanlıqlarını və hətta gübrələri maliyyələşdirmək üçün yüz milyonlarla dollar;

Qvatemalada cinsiyyətin dəyişdirilməsi və ”LGBT fəallığı” üçün 2 milyon dollar;

Kolumbiyada ”transgender operası” üçün 47 min dollar;

Peruda ”transgender komiksi” üçün 32 min dollar;

İrlandiyada ”DEI musical”in səhnələşdirilməsi üçün 70.000 dollar.

”Trampın prezidentliyi dövründə israfçılıq, fırıldaqçılıq və sui-istifadə ilə üz-üzə gələcək”, - Ağ Ev bildirib. Yada salaq ki, ABŞ prezident administrasiyası USAİD-in yüzə yaxın əməkdaşını məcburi məzuniyyətə göndərib və bu strukturun yenidən təşkili imkanlarını öyrənir. İlon Mask USAİD-i cinayət təşkilatı adlandırıb və agentliyin bağlanması üçün çalışdığını açıqlayıb. X sosial şəbəkəsində USAİD-in səhifəsi də bağlanıb, agentliyin rəsmi saytı da fəaliyyətini dayandırıb, USAİD-in Vaşinqtondakı baş ofisi bağlanıb. Məlum olduğu kimi, USAİD-in Ukraynadakı nümayəndəliyi bütün layihələri və onlara çəkilən xərcləri dayandırmaq barədə göstəriş alıb.

### Fiko USAİD qrantları haqqında

Hökumət başçısı Slovakiyanın qeyri-hökumət təşkilatlarına, KİV-lərinə və ayrı-ayrı jurnalistlərə verilən subsidiyalar və qrantlar haqqında məlumatı Bratislavaya ötürməyi xahiş edir. Slovakiyanın Baş naziri Robert Fiko ABŞ-ın yeni yaradılmış Hökumətin Səmərəliliyi Departamentinin (DOGE) rəhbəri İlon Maska müraciət edərək, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) ləğvi ideyasına görə təşəkkür edib. Eyni zamanda, hökumət başçısı Maskdan Slovakiyanın qeyri-hökumət təşkilatlarına Agentlik tərəfindən verilən subsidiyalar və qrantlar barədə məlumat verməsini xahiş edib. O, bu barədə bazar ertəsi, fevralın 10-da Facebook-da məlumat verib.

”Hörmətli cənab nazir İlon Mask, təyinatınız və qəbul etdiyiniz qərarlar münasibətilə sizi təbrik edirəm. USAID agentliyinin bağlanması Slovakiya Respublikasının daxili işlərinə də təsir edir”, - Fiko yazıb. O, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin maliyyə resurslarından Slovakiyada ”siyasi sistemi təhrif etmək və müəyyən siyasi partiyalara dəstək vermək məqsədilə siyasi məqsədlər üçün” istifadə olunmasını danılmaz fakt adlandırıb: ”Faydalı və faydalı layihələri Slovakiya Respublikasının daxili işlərinə kobud müdaxilədən ayıra bilmək üçün mən sizdən subsidiyalar və qrantlar verən ayrı-ayrı media qurumları və qeyri-hökumət təşkilatları haqqında mövcud məlumatların təqdim olunmasını xahiş etməyi düzgün hesab edirəm və Slovakiyada fəaliyyət göstərirlər”.

O qeyd edib ki, ”natamam ictimai mənbələrdən” aydın olur ki, USAID bu təşkilatlara ”nisbətən qısa müddət ərzində” bir neçə milyon dollar məbləğində qrant dəstəyi verib. ”Slovakiyada xarici vəsaitlərin siyasi spektrin bir hissəsinin zərərinə istifadə edilməsi məsələsi o qədər ciddidir ki, mən sizinlə şəxsən görüşməyə hazıram və biz Slovakiya-Amerika münasibətləri üçün qarşılıqlı faydalı olan digər layihələri də müzakirə edə bilərik”, - Fiko əlavə edib. USAİD dünyanın fərqli bölgələrində ”yardım layihələri” həyata keçirən əsas təşkilat kimi tanınsa da, əslində media və vətəndaş cəmiyyətinin ayrı-ayrı nümayəndələrini maliyyələşdirməklə onları dövlət idarəçiliyinə qarşı qərəzli fəaliyyət göstərən birilərinə çevirib. USAİD-in Azərbaycandakı fəaliyyəti də məhz milli düşüncənin hədəf alınması, ayrı-seçkiliyin təşviqi və uğurlu diplomatik addımların ləkələnməsi kampaniyasına çevrilmişdi. Prezident İlham Əliyevin zaman-zaman xəbərdarlıqları da olmuşdu. USAİD-in maliyyə vəsaiti hesabına anti-Azərbaycan kampaniyası aparan ”Azadlıq radiosu” və ”Amerikanın səsi” kimi media qurumlarının əsl mahiyyəti rtıq hər kəsə bəllidir.

Tarixi Zəfərimiz, ərazi bütövlüyümüzün bərpası və yaradılan yeni reallıqlarla barışmaq istəməyən mərkəzlərin ortaq şəbəkəsinə çevrilmiş bu media subyektləri cəmiyyətdə qeyri-sabitliyi təşviq edəcək yalan məlumatların tirajlanması ilə bağlı təlimatları da USAID agentlərindən almışdılar. Əlbəttə, onların qərəzli fəaliyyəti dövlət qurumlarının nəzarətində olduğundan hədəflərinə heç vaxt çata bilmədilər.

Xatırladaq ki, yanvarın 20-də ABŞ prezidenti Donald Tramp bütün xarici yardım proqramlarının onun siyasi məqsədlərinə uyğun olub-olmadığını müəyyən etmək üçün yoxlanılana qədər 90 gün müddətinə dayandırılması barədə sərəncam imzalayıb.

***V.VƏLİYEV***

# Yol-nəqliyyat infrastrukturu təkmilləşdirilir

Azərbaycanda son illər ərzində yol-nəqliyyat infrastrukturu sahəsində əhəmiyyətli islahatlar həyata keçirilib. Paytaxt Bakı şəhər ərazisindəki yol şəbəkəsinin təkmilləşdirilməsi, yeni yol kəsişmələrinin və körpülərin tikilməsi, həmçinin tıxacların azaldılması məqsədilə müxtəlif layihələr də icra edilmişdir. Bakıdakı əsas magistral yollarda təmir və bərpa işləri, habelə yol infrastrukturunun müasirləşdirilməsi yollarda nəqliyyat vasitələrinin artan sayına paralel olaraq aparılmaqdadır. "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədi daşıyır. Son 20 ildə Azərbaycan Respublikasında yol infrastrukturunun inkişafı sahəsində əsas nailiyyətlərdən biri ümumilikdə 20,8 min km uzunluğunda (o cümlədən 6,6 min km respublika əhəmiyyətli, 11,6 min km yerli əhəmiyyətli və 2,6 min km isə Bakı şəhərində) yeni yolların tikilməsi, yenidən qurulması və təmir olunmasıdır. Bundan əlavə, ümumi istifadədə və Bakı şəhərində olan avtomobil yollarında ümumilikdə 335 ədəd körpü və yol ötürücüsü tikil-







miş, 56 ədədi təmir edilmiş, 163 ədəd yeraltı və yerüstü piyada keçidi və 45 ədəd tunel tikilmişdir. Bakı şəhərində və ətraf ərazilərdə mobilliyin artırılması və nəqliyyat axınının daha səmərəli idarə olunması məqsədilə 4 parklanma zonası üzrə 18 min parklanma yeri yaradılmışdır. Avtobusla sərnişindaşıma tezliyinin artırılması, hərəkət sürətinin təmin edilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi üçün 112 kilometr uzunluğunda avtobus zolaqları çəkilmişdir. Eyni zamanda, gündəlik xəttə çıxan avtobus sayı 1750-dən 2160-a qədər artırılmışdır. Bu islahatların məntiqi nəticəsi kimi əhali arasında avtobuslara inam artmış, islahatlar başladığı zamanla müqayisədə Bakı və şəhərətrafı ərazilərdə daşımalar 41 milyon və yaxud 9 faiz artmışdır.

Dövlət Proqramında qeyd olunduğu kimi, işğaldan azad olunmuş ərazilərdə ümumi uzunluğu 3.4 min km təşkil edən 44 avtomobil yolu layihəsi icra edilir ki, onlardan ümumilikdə 0.3 min km (6 layihə tamamilə, 1 layihə isə qismən) tikilib başa çatdırılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Azad edilmiş ərazilərdə görülən işlərin əsasını nəqliyyat layihələri təşkil edir. 3400 kilometrə yaxın avtomobil yolu - hələlik cəmi 44 avtomobil yolu layihəsi icra edilib, ya da ki, icra edilməkdədir. Eyni zamanda, 45 tunel, 447 körpü, 16 viaduk nəzərdə tutulub. Bunlardan 28 tunel, 392 körpü və 9 viadukun tikintisi tamamlanmışdır. Horadiz-Ağbənd dəmir yolunun 60 faizi inşa edilib. Bərdə-Ağdam dəmir yolunun 94 faizi inşa edilib. Bu, sadəcə olaraq, əsas layihələrdir ki, mən ictimaiyyətin diqqətinə çatdırıram və bu rəqəmlər hər şeyi deyir, hər şeyi göstərir. Göstərir ki, hansı ölçüdə biz nəqliyyat layihələrini icra etmişik. Əgər biz bunları icra etməsəydik, bu gün həm Bakı şəhəri, həm digər şəhərlər, həm də ümumiyyətlə, ölkə şəhərləri arasındakı bağlantılar bizim nəqliyyat imkanlarımızı tamamilə iflic vəziyyətinə sala bilərdi."

Bakı şəhərində və ətraf ərazilərdə sürətli urbanizasiya və əhali artımı nəqliyyat sahəsində islahatları zəruri edir. Mövcud vəziyyətdə şəhərin nəqliyyat sisteminin səmərəliliyini artırmaq və urbanizasiya nəticəsində yaranan çətinliklərin qarşısını almaq üçün strateji tədbirlərə ehtiyac vardır. Bakı şəhərinin və ətraf ərazilərin əsas nəqliyyat infrastrukturu, hərəkət axınları və iqtisadi fəaliyyət mərkəzdə cəmləşdiyindən şəhərdən kənar istiqamətə doğru hərəkətlər məhdudlaşır. Bakı şəhərinin 2020-2040-cı illəri əhatə edən Baş Planında bu qlobal trendlər nəzərə alınaraq, şəhərin perspektiv inkişaf istiqamətləri müəyyən edilmişdir.

## AZƏRBAYCAN YOL İNFRASTRUKTURUNUN KEYFİYYƏTİ ÜZRƏ MDB DÖVLƏTLƏRİ ARASINDA BİRİNCİ YERDƏDİR

Görülmüş işlər nəqliyyat vasitələrinin nizamlı şəkildə parklanmasını təmin etməklə, yollarda nəqliyyat sıxlığının azalmasına, eyni zamanda piyadalar üçün daha təhlükəsiz və rahat mühitin formalaşmasına xidmət edir. Bundan əlavə, beynəlxalq nəqliyyat əlaqələrinin təmin olunması üçün həyata keçirilən M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolu, M-2 Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi avtomobil yolu, 6 M-3 Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu, Şəki-Oğuz-Qəbələ və Füzuli-Şuşa (Zəfər yolu) kimi avtomobil yolu layihələri yüksək keyfiyyətli və təhlükəsiz hərəkət imkanları təqdim etməklə, həm yerli, həm də beynəlxalq tranzit daşımalarının sürətini artırmağa və yükdaşımaların effektivliyini yüksəltməyə kömək etmişdir. Bakı şəhərində şəhərdaxili və şəhərətrafı sərnişin nəqliyyatını asanlaşdırmaq məqsədilə icra edilmiş Bakı dairəvi avtomobil yolu, Böyükşor-Pirşağı, Zığ-Hava Limanı, Hava Limanı-Mərdəkan-Zuğulba, Böyükşor şosesi, Mərdəkan şosesi, H.Əliyev prospekti, Babək prospekti və 8 Noyabr prospekti layihələri şəhər və ətraf ərazilər arasındakı əlaqələri sürətləndirərək nəqliyyat infrastrukturunun gücləndirilməsinə töhfə vermiş, sərnişinlərin rahat və təhlükəsiz hərəkətinə imkan yaratmışdır. Yol infrastrukturunun qorunması və normalara uyğun olaraq nəqliyyat vasitələrinin oxuna düşən yükə nəzarət məqsədilə magistral yollarda elektron tərəzilər quraşdırılmışdır. Qeyd olunan işlər Azərbaycan Respublikasının yol infrastrukturunun keyfiyyətini artırmaq və nəqliyyatın daha sürətli və etibarlı olmasını təmin etmək məqsədinə xidmət edir. Dünya İqtisadi Forumunun avtomobil yollarının vəziyyəti ilə bağlı hesabatına əsasən, Azərbaycan yol infrastrukturunun keyfiyyəti üzrə MDB dövlətləri arasında birinci yerdə, dünyada isə 27-ci yerdə qərarlaşaraq beynəlxalq səviyyədə yüksək qiymətləndirilmişdir.

## 2030-CU İLƏDƏK 10 YENİ METROSTANSİYASI TİKİLƏCƏK

Təbii ki, sərnişinlərin daşınmalarını təkcə avtobuslarla yerinə yetirmək mümkün deyil. Tələbat yüksək olduğundan kütləvi daşıyıcıların xidmətlərinin genişləndirilməsi çox vacibdir. Burada metronun inkişafı önəmlidir.

Bakı metrosunun inkişafı çərçivəsində mühüm layihələr həyata keçirilir və gələcək üçün genişmiqyaslı planlar hazırlanmışdır. Dövlət Proqramında qeyd olunduğu kimi, xarici təchizatçı ilə 65 vaqonun tədarükü üzrə müqavilə imzalanmış, 2024-cü ildə 35 vaqon ölkəyə gətirilərək sərnişinlərin istifadəsinə verilmişdir. Artan sərnişin tələbi nəzərə alınaraq, cari ildən etibarən 2030-cu ilədək 10 yeni metro stansiyasının tikintisi planlaşdırılır. "Bakı Metropoliteni Xətlərinin Konseptual İnkişaf Sxemi"nə əsasən, metropolitenin ümumi şəbəkəsinin 5 xətdən, 76 stansiyadan, 6 elektrik deposundan və 119,1 km uzunluğunda xətlərdən ibarət olması nəzərdə tutulur. Gələcək planlarda 51 yeni stansiyanın inşası və əlavə 84,3 km metro xəttinin çəkilməsi əsas prioritetlərdəndir. Bu layihələr həm sərnişin axınını rahatlığını təmin edəcək, həm də şəhərin davamlı mobillik strategiyasına töhfə verəcəkdir. Bu stansiyalar "Bənövşəyi xətt"in Babək prospektinə qədər və "Yaşıl xətt"in isə metronun "Həzi Aslanov" stansiyasına qədər uzadılmasıdır. "Bənövşəyi xətt"in uzadılması, metronun "Avtovağzal" və "Xocasən" stansiyalarının istifadəsini genişləndirəcək və bir daha "20 Yanvar" metrostansiyasına və həmin dairəyə təzyiqi ciddi şəkildə azaldacaqdır. Bu layihələrin icrası nəticəsində il ərzində metro ilə daha 88 milyon sərnişin daşınması mümkün olacaqdır. Metro şəhər daxilində olan daşımaları həyata keçirəcəkdir.

## NƏQLİYYAT İNFRASTRUKTURU TƏKMİLLƏŞDİRİLİR

Lakin bundan başqa, şəhər ətrafından paytaxta gün ərzində 400 min sərnişin daxil olmaqdadır və bu sərnişinlərə xidmət göstərilməsi üçün dəmir yolunun xidmətlərinin genişləndirilməsi proqramı da nəzərdə tutulmuşdur. Burada ilk olaraq Abşeron dairəvi yoluna qatarların əlavə edilməsi, yük qatarlarının dairəvi yola daxil olmasının qarşısının alınması üçün Güzdək-Qaradağ dəmir yolunun istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Həmçinin mövcud olan, lakin köhnəlmiş və istifadədən çıxarılmış bəzi dəmir yollarının da istifadəyə qaytarılması qərara alınmışdır. Bunlar "Zabrat 2"- "Maştağa"- "Bağlar"- "Albalı", Bakıxanov-Binə-Qala-Yeni Suraxanı-Hövsan istiqamətləridir ki, bunlar da sərnişin axınına xidmət göstərməyə imkan verəcəkdir. Növbəti mərhələdə Yeni Suraxanıdan Heydər Əliyev Beynəlxalq Aeroportuna dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulmuşdur ki, orada sərnişin axını artdıqda dəmir yolu xidmət göstərə bilsin.

Bakıda iki yaşayış sahəsinin - Mehdiabad və "Sea Breeze" ərazilərinin metro və dəmir yoluna çıxışı yoxdur. Bu ərazilərdə isə artıq tramvay xətlərinin tətbiq olunması nəzərdə tutulmuşdur. "Sea Breeze"dən tramvay xətti çəkilərək Pirşağı stansiyası ilə əlaqələndiriləcək və orada bir hab yaradılacaq. Mehdiabad-Binəqədi istiqamətindən isə metronun "28 May" stansiyası ilə əlaqələndirməklə tramvay xəttinin çəkilməsi nəzərdə tutulmuşdur ki, sərnişinlərə xidmət göstərilə bilsin.

Dövlət Proqramının icrası Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsini, şəhərdaxili sıxlığın azaldılmasını və geniş nəqliyyat şəbəkəsinin qurulmasını təmin etməklə yanaşı, ictimai nəqliyyatdan istifadənin səmərəliliyini artıracaq, özəl sektorun innovativ həllərlə proseslərə töhfə verməsini təşviq edəcək və iqtisadi rifahın artmasına şərait yaradacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qəzzaya növbəti “xaç yürüşü”

## Fələstinlilərin köçürülməsinin arxasında nə dayanır?



***Donald Tramp ABŞ-ın Qəzza zolağına ”nəzarəti ələ keçirəcəyini” deyib, Misir, İordaniya və digər ölkələri mümkün qədər çox fələstinli qaçqını qəbul etməyə çağırıb. ABŞ prezidenti Donald Tramp qeyd edib ki, onun Qəzza zolağının ələ keçirilməsi və yenidən qurulması planına əsasən didərgin düşmüş iki milyon fələstinlinin geri qayıtmaq hüququ olmayacaq. Bu barədə o, Fox News-a müsahibəsində bildirib. Bir sözlə, fələstinlilərin öz evlərinə qayıda biləcəkləri sualına ABŞ lideri mənfi cavab verib. ”Xeyr, onlar geri qayıtmayacaqlar, çünki daha yaxşı mənzillərə sahib olacaqlar. Bununla demək istəyirəm ki, onların daimi yaşamaları üçün yerlər tikiləcək”, - Tramp deyib.***

O, Qəzza zolağının hazırda ”yaşamaq üçün yararsız” olduğunu izah edib. Tramp bu yaxınlarda beynəlxalq ictimaiyyətin onun planını pisləməsinə baxmayaraq, ”Qəzzanı almağa və ona sahib olmağa sadiq olduğunu” bildirmişdi. Xatırladaq ki, yanvarın 17-də İsrail və HƏMAS arasında atəşkəs sazişi imzalanıb. Və cəmi iki gün sonra ilk girov mübadiləsi baş verib. Razılaşmanın bir hissəsi olaraq, İsrail ömürlük həbs cəzasına məhkum edilmiş 250 fələstinli məhbus da daxil olmaqla 2000 fələstinli məhbusu azad edəcəyini vəd edib. Həmas isə 33 israilli girovu azad edəcəyinə söz verib.

### Tramp kimi hədələyib?

Fələstin anklavının köçürülməsi halında ərəb dövlətləri Qəzza sakinlərini qəbul etməkdən imtina edərsə, Birləşmiş Ştatlar Misir və İordaniyaya yardımı kəsə bilər. Bu barədə bazar ertəsi ABŞ Prezidenti Donald Tramp Ağ Evdə jurnalistlərlə söhbətində bildirib. ”Bəli, bəlkə. Asanlıqla. Niyə olmasın? ”O, iki ölkə Qəzza zolağının əhalisini qəbul etməsə, Vaşinqtonun Misir və İordaniyaya milyardlarla dollar illik maliyyə yardımı göstərməkdən imtina edə biləcəyi ilə bağlı suala cavab verib. ”Əgər onlar razı olmasalar, mən potensial olaraq yardım göstərməyəcəyəm”, - Amerika lideri təkrarlayıb.

O, həmçinin İordaniya və digər ərəb ölkələrinin Qəzza zolağından fələstinliləri qəbul etməkdən imtina etməyəcəyinə əminliyini ifadə edib. ”Mən həqiqətən düşünürəm ki, İordaniya Kralı II Abdullah fələstinliləri qəbul edəcək və mən hesab edirəm ki, digər ölkələr də onları qəbul edəcək. ”Onların yaxşı ürəkləri var” deyə president vurğulayıb. Misirin xarici işlər naziri Bədr Abdel Atti bazar ertəsi günü Vaşinqtonda ABŞ dövlət katibi Marko Rubio ilə danışıqlar aparıb. Onun qeyd etdiyi kimi, Yaxın Şərqdə sülh əldə oluna bilər, lakin bu, fələstinlilərin qanuni hüquqlarını, xüsusən də öz dövlətlərini qurmaq hüququnu təmin edəcək şərtlərlə baş verməlidir. İordaniya kralı II Abdullahın çərşənbə axşamı Tramp tərəfindən Ağ Evdə qəbul edilməsi planlaşdırılır.

### Tramp üçün vaxt daralır

Donald Tramp politoloqları, analitikləri və bütün dünya ictimai rəyini məşğul etməkdə davam edir. Onun ABŞ-ın daxili və xarici siyasətindəki parlaq bəyanatları və qərarları artıq ictimaiyyətin başqa bir hissəsində böyük təşviş, qınaq, eləcə də heyranlıq və ümidlərə səbəb olub. Tramp Qrenlandiyanı ilhaq etməyə, Kanadanı ilhaq etməyə, Panama kanalını ABŞ-a qaytarmağa və nəhayət, Meksika ilə sərhəddə divarın tikintisini başa çatdırmağa hazırdır. Və təbii ki, tariflər, tariflər, tariflər... Artıq Çindən gətirilən mallara görə rüsumlar qaldırılıb və eyni aqibət Şimali Amerika Azad Ticarət Sazişində qonşuları da hədələyir. Avropalı tərəfdaşlar isə Amerika enerjisi, qidası və avtomobilləri üçün daha çox pul ayırmalı olacaqlar. Tramp beynəlxalq arenada tarif siyasətindən fəal şəkildə istifadə edir.



Əlbəttə, Rusiyada ən çox ABŞ prezidentinin Ukrayna ilə bağlı mövqeyi maraqlandırır. Bu məsələ ilə bağlı bəyanatlar silsiləsi kifayət qədər təvazökarlıqla başlayıb. Tramp 2020-ci il seçkilərindən sonra hakimiyyətdə olsaydı, Ukraynada heç vaxt silahlı münaqişə baş verməzdi. 2024-cü il noyabrın 5-də keçiriləcək seçkilərə yaxın bir vaxtda və inaqurasiyadan əvvəl səs-küylü bəyanat səsləndi: ”24 saat ərzində Ukraynaya sülh və asayiş gətirəcəyəm”. Bir dəfə Ağ Evin Oval Ofisində o, bəyanatlarının əhatə dairəsini əhəmiyyətli dərəcədə nəzərdən keçirdi və köməkçilərinin məsləhətinə qulaq asaraq Keyt Kelloqu Ukrayna münaqişəsinin həlli üzrə nümayəndəsi təyin etdi və ona bunu həyata keçirmək üçün 100 gün vaxt verdi. Amma zaman keçir, ictimaiyyət intizar içindədir... Onun hakimiyyətdə olduğu ilk həftələrdə ABŞ və Aİ-nin xarici siyasətindəki Ukrayna fəlakətini asanlıqla Cozef Baydenin komandasına yükləmək olardı. Doğrudan da, Demokratik administrasiya Ukrayna yolunda çoxlu səhvlərə yol verib. Lakin Cozef Bayden artıq unudulmaqdadır. Və çox yaxında ictimaiyyət soruşacaq: Ukrayna böhranının həlli istiqamətində həlledici addım haradadır?

Hələlik ”Putinlə görüşmək və həlledici danışıqlar aparmaq” barədə qeyri-müəyyən vədlərdən başqa heç nə yoxdur. Telefon danışığı baş tutmaq üzrədir, görüşün tarixi və yeri bundan sonra olacaq. Macarıstan və Qazaxıstan mümkün Rusiya-Amerika sammiti üçün yer ayırmağa hazır görünür.

Moskva da öz növbəsində gələcək görüşün mümkünlüyünü müzakirə etməkdən çəkinmir. Eyni zamanda, Rusiya tərəfi gələcək danışıqların gündəmini təkcə Ukrayna ilə məhdudlaşdırmadığını açıq şəkildə bildirir. İki böyük dövlətin münasibətlərində yığılıb qalan bir çox başqa məsələlər var - Rusiya ilə ABŞ arasında münasibətlərdə dərin böhran vəziyyətini normal adlandırmaq olmaz. Amma görüş xatirinə nə Kremlə, nə də Ağ Evə görüş lazım deyil. İki böyük dövlətin liderləri dünya siyasətində böhran vəziyyətində bir araya gələndə dünya onlardan böhranın həlli istiqamətində təcili addımlar atmalarını, heç olmasa, aralarındakı münasibətlərdəki gərginliyi azaltmağa hazır olduqlarının bariz ifadəsini gözləyir.

Trampın problemləri də buradan başlayır. O, Kiyevə silah tədarükünə və maliyyə yardımına son qoyduğunu bəyan etməklə Ukrayna böhranını qəti və tez həll edə bilərdi. Amma Kiyevdə ali hakimiyyətin legitimliyi problemini həll etmək və bu məqsədlə, yeri gəlmişkən, Trampın Zelenskidən artıq tələb etdiyi, lakin hələlik uğur qazana bilməyən prezident seçkiləri keçirmək lazımdır.

Moskva qarşı tərəfə ən vacib şeyi təklif edir, Donbassda dərhal atəşkəs. Ancaq Kreml bununla kifayətlənmir, Rusiya tərəfinə Ukrayna Silahlı Qüvvələrinin yeni silahlar və islahatların aparılacağı atəşkəsdən başqa bir şey yoxdur. Moskvanın düşünülmüş və zəmanətli (hüquqi və texniki cəhətdən) tammiqyaslı nizamlanmaya ehtiyacı var, o cümlədən Krım və Novorossiya sərhədlərinin Rusiyanın bir hissəsi kimi tanınması, Ukrayna üçün neytral status, Kiyevi NATO-ya qəbul etməkdən kollektiv Qərbin imtinası, Ukraynanın bütün əhalisi üçün insan hüquqlarının və demokratik azadlıqların təminatı. Nə Tramp, nə onun avropalı müttəfiqləri, nə də xüsusilə Ukrayna prezidenti Vladimir Zelenski indi buna hazır deyil. Baxmayaraq ki, sonuncunun legitimliyini təsdiqləmək də böyük problemdir.

Avropalı müttəfiqlər isə əksinə, Donald Trampdan Rusiyanı Brüsselin şərtləri ilə atəşkəsə məcbur etmək üçün ona təzyiq göstərmək üçün getdikcə daha çox öhdəliklər tələb edirlər. Üstəlik, Amerika prezidentinin komandasında ”şahinlər” qanadı yaranıb. Eyni Keith Kellogg və Milli Təhlükəsizlik müşaviri Mayk Waltz öz himayədarlarını əmin edirlər ki, Moskvaya qarşı əlavə təzyiq rıçaqları hələ də mövcuddur. Buna görə də Tramp özünü Amerika xarici siyasətinin həm ənənəvi alətləri - kök və çubuqla eyni vaxtda manipulyasiya etmək kimi qeyri-müəyyən mövqedə tapır.

Çubuq məsələsinə gəlincə, bu, Moskva ilə münasibətlərdə ən az təsirli vasitədir. Təbii ki, iqtisadi sanksiyaların daha da sərtləşdirilməsi mümkündür. Amma əvvəlki təcrübə göstərdi ki, Rusiya enerji ixracından asılılıq baryerini artıq keçib. Rusiya hökuməti və siyasi rəhbərliyi neft və qaz tədarükünün istiqamətlərini şaxələndirməyə nail olub. Əgər amerikalı ekspertlər istəsələr Moskva üçün müxtəlif növ güzəştlərin və indulgensiyaların bütün spektrini formalaşdıra bilərlər. Yeganə sual bunun müqabilində nə istədikləridir. Rusiya Ukrayna nizamlanması üzrə bütün mümkün danışıqlarda artıq ehtiyat (ifrat) mövqe tutub və bu mövqe hələ 2021-ci ilin dekabrında Cenevrədə Amerika nümayəndələrinə təqdim edilən Rusiya və ABŞ arasında qarşılıqlı təhlükəsizlik zəmanətləri haqqında sənəd layihəsində öz əksini tapıb. Bu mövqeyə bir daha Vladimir Putin 2024-cü il iyunun 14-də aydınlıq gətirib. Trampın indi bu elementar real şərtləri qəbul etmək və Ukrayna ətrafındakı ziddiyyətlərin Qordi düyününü kəsmək üçün unikal fürsəti var. Təbii ki, bu, istər-istəməz reputasiya itkiləri ilə nəticələnəcək, çünki Trampın bütün dünyadakı rəqibləri onun demokratiya işinə ”xəyanətindən” danışacaqlar. Ancaq hər şeyi sələfi Cozef Baydenin üzərinə atmaq fürsəti pəncərəsi hələ bağlanmayıb.

***V.VƏLİYEV***

EKSPERT DANIŞDI

# Müəllimlərin sayının azalması təhsildə keyfiyyətə necə təsir edəcək?

"Müəllimlərin sayının azalması təhsilin keyfiyyətinə birbaşa təsir edən əsas amillərdən biridir və bu prosesin necə həyata keçiriləcəyi təhsilin gələcəyi üçün həlledici olacaq. Əgər bu islahat düzgün planlaşdırılmazsa, müəllimlərin sayının azaldılması təhsil sistemində ciddi problemlərə səbəb ola bilər. Bu prosesin əsas məqsədi müəllimlərin dərs yükünü artıraraq onların maaşlarını yüksəltməkdirsə, bu yanaşma uzunmüddətli perspektivdə daha böyük fəsadlara gətirib çıxara bilər". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: "Müəllimlərin sayının azalması ilə dərs yükü artacaq və bu, pedaqoji fəaliyyətin key-



fiyyətinə mənfi təsir göstərə bilər. Beynəlxalq təcrübə göstərir ki, müəllimin dərs saatlarının optimal olması onun tədris prosesində daha effektiv və yaradıcı fəaliyyət göstərməsinə imkan yaradır. Məsələn, Finlandiya və Estoniya kimi ölkələrdə müəllimlər həftədə orta hesabla 15-20 saat dərs deyir və qalan vaxtlarını dərs hazırlığına, metodiki işlərə və şagirdlərlə fərdi işləməyə sərf edirlər. Bu model müəllimin həm şagirdlərə fərdi yanaşmasını təmin edir, həm də onun pedaqoji bacarıqlarını daim inkişaf etdirməsinə şərait yaradır. Əgər Azərbaycanda müəllimlərin dərs yükü həftədə 30-35 saata qədər artırılarsa, onların metodiki işlərə, şagirdlərlə fərdi məşğul olmağa və öz üzərində işləməyə vaxtı qalmayacaq. Bu isə təhsilin keyfiyyətinə birbaşa mənfi təsir edəcək.

Şagirdlərin sayı ilə müəllimlərin sayı arasındakı balans pozulanda təhsilin keyfiyyəti aşağı düşür. Müəllimlərin sayının azaldılması siniflərdə şagird sayının artmasına səbəb olacaq və bu da müəllimlərin hər bir şagirdə fərdi yanaşmasını çətinləşdirəcək. Məsələn, hazırda bəzi məktəblərdə siniflərdə 30-35 şagird var ki, bu da dərsin effektivliyini azaldır. Əgər müəllimlərin sayı azaldılarsa və bu tendensiya davam edərsə, gələcəkdə siniflərdə 40-45 şagirdin olması reallığa çevriləcək. ABŞ və Avropa ölkələrinin təhsil sistemində aparılan araşdırmalar göstərir ki, siniflərdə şagird sayının azalması akademik göstəricilərə müsbət təsir edir. Harvard Universitetinin 2020-ci ildə apardığı araşdırmaya görə, sinifdə şagird sayı 25-dən az olduqda, onların akademik göstəriciləri daha yüksək olur. Yeni müəllimlər nə qədər az şagirdə dərs keçərsə, bir o qədər keyfiyyətli nəticələr əldə etmək mümkündür.



Müəllimlərin sayının azaldılması nəticəsində bəzi ixtisaslar üzrə ciddi kadr çatışmazlığı problemi yarana bilər. Hazırda Azərbaycanda riyaziyyat, fizika, informatika və texniki fənlər üzrə müəllim çatışmazlığı müşahidə edilir. 2022-ci ildə Dövlət İmtahan Mərkəzinin keçirdiyi müəllimlərin işə qəbulu imtahanlarında bəzi fənlər üzrə keçid balını toplayan namizədlərin sayı kifayət qədər az olub. Əgər müəllimlərin sayı azaldılarsa və yeni müəllimlərin işə cəlb edilməsi məhdudlaşdırılarsa, gələcəkdə bu fənlər üzrə ciddi müəllim çatışmazlığı yaranacaq. Bu isə təhsil sistemində ciddi boşluqların meydana çıxmasına və bəzi fənlərin keyfiyyətsiz tədrisinə səbəb olacaq.

Müəllimlərin sayının azaldılması onların peşəkar inkişafına da mənfi təsir göstərə bilər. Əgər müəllimlər daha çox dərs yükü ilə işləməyə məcbur olsalar, onların ixtisasartırma kurslarına, əlavə təlimlərə və yeni pedaqoji metodları öyrənməyə ayıracaq vaxtları olmayacaq. Finlandiya, Almaniya və Sinqapur kimi qabaqcıl təhsil sistemlərinə malik ölkələrdə müəllimlərin peşəkar inkişafı üçün onlara kifayət qədər vaxt ayrılır. Bu ölkələrdə müəllimlərə metodiki hazırlıq üçün əlavə saatlar verilir və onların tədris keyfiyyətinin daim yüksəldilməsi üçün resurslar təmin edilir. Azərbaycanda isə əgər müəllimlərin dərs yükü artırılarsa və onlara əlavə metodiki hazırlıq üçün vaxt ayrılmazsa, bu, onların pedaqoji bacarıqlarının zəifləməsinə və nəticədə təhsilin keyfiyyətinin aşağı düşməsinə səbəb olacaq.

Maaşların artırılması üçün müəllimlərin sayını azaltmaq qısamüddətli həll kimi görünə bilər, lakin uzunmüddətli perspektivdə təhsil sisteminin inkişafına mane olacaq. Müəllimlərin maaşlarının artırılması yalnız onların dərs saatlarını artırmaqla yox, həm də təhsil sisteminə daha çox investisiya qoymaqla mümkün ola bilər. Məsələn, Estoniyada müəllim maaşlarının artırılması üçün dövlət büdcəsindən əlavə vəsait ayrıldı və bu, ölkədə müəllim peşəsini daha cəlbedici etdi. Nəticədə, Estoniyanın təhsil sistemi beynəlxalq reytinqlərdə yüksək yer tutmağa başladı. Azərbaycanda isə maaş artımını yalnız müəllimlərin dərs yükünü artırmaqla həll etməyə çalışmaq onların iş şəraitini çətinləşdirəcək və pedaqoji sahəyə marağın azalmasına səbəb olacaq.

Nəticə olaraq, müəllimlərin sayının azaldılması və dərs yükünün artırılması təhsilin keyfiyyətinə birbaşa təsir edəcək və bu təsir əsasən mənfi olacaq. Əgər bu proses düzgün planlaşdırılmasa, müəllimlərin psixoloji və fiziki tükənməsi, şagirdlərin akademik göstəricilərinin azalması və kadr çatışmazlığı kimi ciddi problemlər meydana çıxacaq. Əgər məqsəd təhsilin keyfiyyətini artırmaqdırsa, bu, yalnız müəllimlərin sayını azaltmaqla yox, onların iş şəraitini yaxşılaşdırmaq, tədris prosesini innovativ üsullarla təkmilləşdirmək və məktəblərdə təhsil infrastrukturunu gücləndirməklə mümkündür. Müəllimlərin sayı azaldılmadan da onların maaşlarını artırmaq və təhsilin keyfiyyətini yüksəltmək mümkündür. Əsas məsələ, qısamüddətli iqtisadi həllər deyil, uzunmüddətli və dayanıqlı təhsil strategiyasının qurulmasıdır".

**Ayşən Vəli**

# Azərbaycanda işsizliyə görə kimlər müavinət ala bilər?

***Azərbaycanda işsizliyə görə kimlər müavinət ala bilər? Bunun üçün vətəndaş hara müraciət etməlidir? Ölkəmizdə bununla bağlı sosial yardımı kimlər və necə ala bilər? SİA mövzu ilə əlaqədar Dövlət Məşğulluq Agentliyinə sual ünvanlayıb.***

Dövlət Məşğulluq Agentliyi: "Sorğunuza cavab olaraq bildiririk ki, işsizlikdən sığorta ödənişi "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsinə yönəldilmiş təminat formasıdır. Qanuna əsasən əmək münasibətlərinə aşağıdakı qeyd edilən əsaslarla xitam verilmiş və işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar malikdirlər:



* dövlət orqanı və ya hüquqi şəxs ləğv edildikdə;
* işçilərin və ya dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə;
* əmək müqaviləsinin müddəti qurtardıqda;
* müəssisənin mülkiyyətçisi dəyişdikdə;
* əvvəllər müvafiq işdə (vəzifədə) çalışan işçinin işinə (vəzifəsinə) bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi (qərarı) olduqda;
* əvvəllər həmin müəssisədə çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra öz iş yerinə (vəzifəsinə) qayıtmaq hüququndan istifadə etdikdə.

Sığorta ödənişi almaq hüququ yaranmış şəxs ilkin mərhələdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumları və ya "DOST" Mərkəzlərində işsiz kimi qeydiyyata alınmalıdır.

Bundan sonra şəxs sığorta ödənişi almaq üçün müraciət edir. Dövlət Məşğulluq Agentliyinin yerli qurumları şəxsin müraciətinə 10 gün ərzində baxaraq, sığorta ödənişinin təyin edilməsi və ya təyin olunmasından imtina edilməsi barədə qərar çıxarır və bu barədə müraciət etmiş şəxsə məlumat verirlər.

Sığorta ödənişi sığortaolunanların "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq fərdi məşğulluq proqramını təsdiq etdiyi aydan sonrakı ayın ilk günündən hesablanır. Dövlət orqanının və ya hüquqi şəxsin ləğvi, işçilərin və ya dövlət qulluqçularının sayı, ştatların ixtisar edilməsi, müəssisənin mülkiyyətçisi dəyişdikdə, əvvəllər müvafiq işdə çalışan işçinin işinə bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi olduqda, əvvəllər həmin müəssisədə çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra öz iş yerinə qayıtmaq hüququndan istifadə etdikdə əsasları ilə işdən azad olunduğu hallarda sığorta hadisəsinin baş verdiyi tarixdən əvvəlki 24 təqvim ayı ərzində 12 təqvim ayından çox sığorta stajına malik olan əmək qabiliyyətli şəxslərə - 6 ay müddətinə əsas sığorta ödənişi sığorta stajından asılı olmayaraq, şəxslərin itirilmiş orta aylıq əməkhaqqının 50 faizi məbləğində hesablanır.

Əmək müqaviləsinin müddətinin bitməsi halında isə 3 ay müddətinə minimum aylıq əmək haqqı məbləğində ödəniş təyin olunur. Dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin və ya dövlət qulluqçularının sayı və ya ştatların ixtisar edilməsi, müəssisənin mülkiyyətçisi dəyişdikdə, əvvəllər müvafiq işdə (vəzifədə) çalışan işçinin işinə (vəzifəsinə) bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi (qərarı) olduqda, əvvəllər həmin müəssisədə çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra öz iş yerinə (vəzifəsinə) qayıtmaq hüququndan istifadə etdikdəəsasları ilə işdən azad olunan işsiz şəxslərə ilkin müraciət zamanı 6 ay, təkrar müraciət zamanı isə 3 ay müddətinə təyin edilir".

**Söylü Ağazadə**

MÜNASİBƏT

# Quş südü əskik yas süfrələri







***Son onilliyin ən qızğın müzakirə və mübahisə edilən mövzularından olan yas süfrəsi mövzusu hələ də müzakirəyə açıq olaraq qalır. Bu qədər yazılan, müzakirə ediləndən sonra belə heç bir yas sahibi süfrəsini "kasıblatmadı". Yenə yas süfrələri dəbdəbəsindən, təntənəsindən, cah-cəlalından geri qalmır. Hər gün dindən dəm vuran, israfçılığın günah olmasından danışan insanların öz evində olan yas mərasimlərində belə bu mənzərə kifayət qədər dəbdəbəlidir. Bu cür süfrələrdə bir tək quş südü əskikdir desək, vəziyyəti daha yaxşı təsvir etmiş olarıq.***

Ümumiyyətlə, millət, xalq olaraq çox pis bir cəhətimiz var, heç kim qonşudan geri qalmır, qalmaq istəmir, lap imkanı olmasa da, lap dilənçi də olsa. Çoxdan başlayıb bu ənənə. İnsanlar lap çoxdan yas mərasimlərini toya çevirdilər, süfrələr dolub-daşdı, yas evinin həyətindən toy evini xatırladan təamların növbənöv qoxuları yayıldı ətrafa. Qadınlar yasa daha sadə bir don, adi bir paltar geyinib getmirdi, kimin nə qızılı, brilyantı, bahalı telefonu vardısa yas mağarında nümayiş etdirirdi.

Heç kim ayağını yorğanına görə uzatmırdı, "qonşum atasının yasında 2 cür yemək verdisə, mən 3 növ etməliyəm" prinsipi ilə məclis qurdu insanlar. Əgər mən öz yas məclisimimdə bir növ şirniyyatla qonağımı yola saldımsa, qonşum acığa düşüb 2 növ şirniyyat düzürdü yas süfrəsinə. Hələ ləbləbini, çərəzləri, növbənöv şokoladları, rəngbərəng meyvə sularını, ekzotik meyvələri demirəm.

Qonşunun yas süfrəsini bəyənməyib "layiqli ehsan vermədi" deyə tənə edənlər də çoxdur aramızda. Yas məclisini dəbdəbəli şəkildə təşkil etməklə insanlar, başqasının tənələrindən uzaq olmağa çalışırlar. Düşünür ki, süfrəyə az nemət qoysa deyəcəklər ki, ata-anasına hörmətsizlik etdi. Ya filankəs məclisdə üç cür şirniyyat verib deyə bu o qədər verməli, ya da ondan da artıq sayda şirniyyat növü menyuya daxil etməlidir.

Bütün ölkəmiz bu yas dəbdəbəsinin əsiri oldu. Borca salan, sələmə girməyə vadar edən yas mərasimləri fəlakətdən də betərdir. Yasın düşəndə bilmirsən itirdiyin əzizinə yanasan, yoxsa borca girib yas süfrəsi açmaq məcburiyyətində olmağına. Ölən əzizin qalır bir tərəfdə, sən qonaqların nə yeyəcəyini, neçə kilo ət lazım olacağını, hansı şirniyyatları bişirtdirmək lazım olduğunu hesablamalısan.

Yas mərasimi kədərin göstəricisidir, ona görə yas düşən evdə qədimdə ocaq tüstülənməzdi neçə gün. Əzizi ölən yemək bişirib süfrə qurmaq istəməz axı. Yası düşənə, əzizi ölənə qonşusu yemək bişirib gətirərmiş - ocağını tüstülətmədiyi, süfrəsini açmadığını bildiyi üçün. İndi neynirik? "Az qalırıq tort sifariş edib üzərində ölən əzizimizin portretini əks etdirək" deyəcəkdim, yadıma düşdü ki, artıq onu da edirik.

İndiki yas mərasimlərinin bircə xanəndə-çalğıçı heyəti çatmır. Oxuyanın yerində molla oturmasa, divardan mərhumun qara lentli rəsmi asılmasa heç kim anlamaz yas mağarına girdiyini. Hər məclisdə molla, axund "bu cür yas süfrəsi açmaq günahdır" deyir, amma özləri daha çox yeyir o təamlardan. Biz göstərişi, cah-cəlalı sevirik. Ən kasıbımız da, ən milyonçumuz da.

Yas mərasimi qarşılıqlı yardımlaşma ilə yola verilirdi, qonşular əlindən tuturdu yas evi sahibinin. Təəssüf ki, bu gün bu adətlər unudulur, başqa formalara salınır. Artıq qarşılıqlı yardım anlayışı əvəzinə yası düşmüş ailənin külli miqdarda borca düşərək yasa gələnlərə ehsan verməsi kimi əcaib adət formalaşıb. Əzizini itirmiş insanlar bilmirlər ki, nə etsinlər. İnsanlar yasa sanki ölü yiyəsinə təsəlli vermək üçün deyil, yemək üçün gəlirlər. Əlbəttə, bütün bunlardan əhalinin varlı təbəqəsi deyil, kasıblar əziyyət çəkirlər.

Restoranlarda nəinki xeyir, həm də şər üçün xüsusi zallar ayrılıb. Məqsəd də əlbəttə ki, insanların cibinə girərək pul qazanmaqdır. Restoranlardan başqa, belə məclislər üçün qurulan çadırlar da çox bər-bəzəklidir. Artıq çadırlarda insanlar üçün hər bir xidmət yaradılıb. Bu cür çadırların içində hətta ayaqyolu olanları da var.

Əvvəllər, rayon-kənd yerlərində kiminsə yaxını öləndə yası olan şəxs sadəcə çadıra görə pul ödəyirdi. Qalan bütün işləri özü, yaxınları gördüyü üçün heç bir əlavə vəsait xərcləmirdi.

Amma indi vəziyyət dəyişdiyi üçün hər kəs bu cür xidmətlərdən yararlanmağa üstünlük verir. Ofisiantından tutmuş qab-qaşıqların yuyulmasına qədər bütün xidmətlər yas mərasimi təşkilatçıları tərəfindən təklif olunur. Çadırın içinin çılçırağı, xalçası, pərdələr, mikrofon-səsgücləndirmə sistemi, qab-qacaq və s. xidmətə daxildir.

Yas evlərinin bir məşhur siması da var - mərsiyəxan. Daha çox şəhər mühitində fəaliyyət göstərirlər. Dini savadları olmayan, insanlarda allaha sevgi aşılamaq yerinə daha çox allah qorxusu və xof aşılamaqla tanınırlar. Məclis boyunca yalançı göz yaşı axıdıb dinlə əlaqəsi olmayan xurafatla zəngin əhvalatlar danışırlar.

Mərsiyəçi və ya mərsiyəxanlar məclisə yüksək qiymətə gəlirlər. Ən yaxşı halda 2 saatlıq ağlaşma mərasimi üçün 100-150 manat tələb edirlər, daha çox tanınan mərsiyəçilər məbləği yüksəldir. Əvvəllər ev sahibinin yaxını öləndə onun dərdinə şərik çıxanlar, məclisə yığışanlar səmimiyyətlə ağlayaraq göz yaşı tökürdü. Çünki məclisdə əzizini itirən özü öz acısını dilə gətirib ağlayırdı. Amma indi ev sahibi özü dünyadan köçəninə ağlamaq yerinə mərsiyəçini ağladır. O məclislərdə mərsiyəçinin missiyası ağı deyib şüvənlik salmaq, məcburən də olsa ağlaşma yaratmaqdır. İndi heç kəs yas yerinə ağlamağa getmir. İnsanlar artıq bir-birinə yadlaşıb. Heç kəs heç kəsi tanımır. Bu yadlaşma nəticəsində isə heç kəs kiminsə ölüsü üçün göz yaşı axıtmaq istəmir.

Adətən, yas yerlərində rəhmətə gedən insanın yaxşı əməlləri sadalanır, dünyadan köçərkən geridə qalanlar, əməlləri, yaxşılıqları, böyütdüyü uşaqların tərbiyəsi müzakirə edilir. Amma mərsiyəçilərin idarə etdiyi məclislərdə qəbir əzabından, namaz qılmayanın həşaratlar tərəfindən yeyilən cəsədindən, cəhənnəm və qır qazanından başqa heç nə danışılmır.

Qısası, yas mərasimi çoxdan yas olmaqdan uzaqlaşıb. Doğrudur, müəyyən qədər qarşısını aldılar, amma yenə də əvvəlki ənənə qayıdır, israfçılıq ayaq açır. Yenə də cənazəsini yarım saat əvvəl torpağa verən ev sahibi onu unudub qonaqların yeməyini düşünməli olur. Yenə də molla xüsusi geyimli ofisianta aşın qazmaqlı yerindən, bol qaralı olmasını sifariş edir, yenə də qonaqlar şirniyyatın azlığından şikayətlənir, yenə də mərsiyəçi pulunu gözləyir. Ev sahibi isə sifarişləri yerinə yetirməlidir. Bu yerdə "heyif öləndən" deməyəsən, neyləyəsən?

***Lalə Mehralı***



Elçin Bayramlı

# Mobil quldurluq sistemi: Şirkətlər abonentləri necə soyurlar?

Mobil telefonların həyatımızdakı rolunun ağlagəlməz sürətlə artması eyni zamanda insanların bununla bağlı xərclərini də artırır. Lakin bu xərclərin bir çoxu heç də ədalətli olmur və abunəçilərin mobil operatorlar tərəfindən aldadılmasına xidmət edir. Bununla bağlı ölkəmizdə çox uzun illərdir ki, ciddi problemlər var. Əvvəla araşdırmalar göstərir ki, bizdə mobil danışığın və mobil internetin qiymətləri dünyada ən bahalı qiymətlərdir. Uzağa getməyək, elə qonşu ölkələrdəki qiymətlər bizdəkindən azı 3-5 dəfə daha ucuzdur. Lakin problem təkcə bahalıq da deyil, əsas məsələ abonentlərin aldadılmasıdır. Yüz minlərlə insan daim aldadıldığını, balansından əsassız olaraq vəsait çıxıldığını, internet trafikinin yoxa çıxdığını desə də, operatorlar heç bir halda bunu qəbul etmir və günahı abonentin boynuna atırlar. Abonent isə bu fırıldağı heç cür sübut edə bilmir. Çünki sistemin sahibi mobil operatorlardır və istənilən vəziyyətdən çıxa bilirlər.

Azərbaycanda 3 əsas operator arasında bölünən abonetlər, narazı qaldığı operatoru dəyişib digərinə keçsə də, orada da oxşar problemlərlə qarşılaşır və aydın olur ki, əslində hamısında belə fırıldaqlar edilir və abonentlər talanır. Bu 3 əsas operatorun (Azərcell, Azərfon və Bakcell) arasında ən çox şikayətlər Bakcell-dəndir. Bu operator açıq aydın abonentlərin balansından vəsaiti süpürüb aparır, internet istifadə edilməyəndə belə internet trafiki yoxa çıxarır və heç vaxt da problemi boynuna almır. Azərcell və NarMobile də o qədər də geri qalmırlar və onlarda da təxminən eyni vəziyyətdir.

Bəziləri deyə bilər ki, telefonda alt fonda işləyən tətbiqlər internet trafiki apara bilər, lakin adi təcrübələr göstərir ki, bir neçə tətbiq alt fonda işləyərkən bir neçə gb trafiki apara bilməz. İnternet sürəti deyiləndən dəfələrlə zəif olur, bəzən adi videonu belə açmır. Bundan başqa, bəziləri bütün proqramların alt fonda işləməsinə qadağa qoysa belə trafik harasa yoxa çıxır. Adicə messengercə yazışmaq, sosial şəbəkədə bəzi statuslara baxmaq, ya da hansısa saytdan bir-iki xəbər oxumaq necə 5-10 gb internet trafikini apara bilər? Bu, texniki cəhətdən də mümkün deyildir.

Bundan başqa, operatorların təklif etdiyi paketlər, tariflər də aldadıcı elementlərlə doludur. Paketi və ya tarifi dəyişmək üçün də əlavə 1-2 manat vəsait tutur. Halbuki, bu prosesin texniki olaraq xərci yoxdur. Bəzən abunəçiləri hansısa xidmətlərə abunə edib balansından gizlicə pul silirlər, abonent nə vaxtsa xəbər tutanda isə deyirlər ki, siz filan xidmətə qoşulmusunuz. Dünyanın harasında görünüb ki, kimisə özündən xəbərsiz zorla hansısa xidmətə abunə edəsən?

Ən çox şikayətlərdən biri də roaminqlə bağlıdır. Xaricə gedib gələn abonentləri elə talayırlar ki, onlar dəhşətə gəlirlər. Dəfələrlə hətta deputatlar belə, bununla bağlı etirazlarını bildiriblər, lakin şirkətlərin heç vecinə də deyil.

Bütün bu problemlərlə bağlı mobil opetarorla əlaqə saxlamaq istəsəniz, bu, praktiki olaraq mümükn olmayacaq. 21-ci əsrdə sırf kommunikasiya təmin edən şirkətlə heç bir üsulla kommunikasiya qurmaq olmur. Saatlarla telefonda gözləməlisən ki, operator cavab verəcək yoxsa yox. Digər vasitələr də əlaqə yaratmaq çətindir. Bir çat-bot robotu qoşurlar zəng mərkəzinə, nə sual versən cavab əvəzinə standrat cümlələri göndərir sənə.

Çox qəribədir ki, dünyada mobil danışığın və internetin qiyməti sürətlə və davamlı şəkildə ucuzlaşdığı halda, bizdə tam tərsinədir- mobil operatorlar davamlı olaraq qiymətləri bahalaşdırırlar. Bunun heç bir iqtisadi əsası yoxdur, olsa da bilməz. Bunun bir adı var- monopolist soyğunçuluq. Bu soyğunçuluğun jurnalistlər tərəfindən mediada ifşa olunmaması üçün mobil operatorlar hər ay onlara müəyyən qədər danışıq və internet paketləri hədiyyə edirlər.

Vəziyyətdən belə görünür ki, bizim operatorlar arasında gizli seperat sövdələşmə var- kartel razılaşması üsulu ilə, onlar elə bir tarif siyasəti yürüdür ki, bazarda qiymətlər heç vaxt enmir. Keçən il mobil rabitədən əldə edilən gəlir 1,3 milyard manata yaxın təşkil edib. Əvvəlki illərdə bu rəqəm 1 milyarda yaxın idi. Göründüyü kimi, şirkətlərin gəlirləri hədsiz artsa da, qiymətləri aşağı salmaq fikrində deyillər. Ümumiyyətlə, bu sahədə problemlər saysız hesabsızdır, bu yazıda sadəcə bir neçəsinə toxunduq. Görünür bazarda 3 operatorun olması monopolist meyllərə və kartel razılaşmasına şərait yaradır. Bu səbəbdən azı 7-8 şirkət olmalıdır ki, bəlkə həqiqi rəqabət baş verə. Yoxsa, mobil telekommunikasiya şirkətləri abonentlərin hüquqlarını pozmaqda, bütün normalara tüpürməkdə davam edəcək.

# Müasir şəraitdə həmkarlar ittifaqlarının sosial missiyasının transformasiyası

***Sovetlər dövründə həmkarlar ittifaqları öz təşkilati müstəqilliyindən uzaq, öz fəaliyyətinin xarakterinə və ittifaqdaxili işinə görə, əslində partiya-dövlət təşkilatına, totalitar sistemin tərkib elementinə, partiya və təsərrüfat aparatının əlavəsi olmuşdur. Demokratik mərkəziyyət prinsipinə uyğun olaraq, onun Stalinsayağı fəaliyyətində elə bir vahid həmkarlar ittifaqları sistemi formalaşmışdı ki, burada mərkəzi orqanların aşağı həmkarlar ittifaqları strukturları üzərində rəhbərliyi tam təsbit olunmuşdur.***



Həmkarlar ittifaqlarında bürokratik, xalis aparatçı iş metodları üstünlük təşkil edirdi.Öz təbiətinə görə müstəqil təşkilatlardan ibarət həmkarlar ittifaqı təşkilatları sistemi çoxsahəli struktura malik, inzibati-amirlik sistemli, tabeçiliyi və təkbaşına rəhbərliyi ilə seçilən təsərrüfat nazirliyini xatırladırdı.

Müvafiq olaraq, dünya həmkarlar ittifaqları hərəkatının ənənələri ilə müqayisədə bu təşkilatların fəaliyyətinin funksional məzmunu da kökündən fərqli idi. Onlar özünün əsas rolunun yerinə yetirilməsi ilə - zəhmətkeşlərin əmək hüquqlarının və maraqlarının müdafiəsi ilə daha az məşğul olur,müdafiə funksiyası müəyyən dərəcədə qalırdı. Bu funksiya dövlət və təsərrüfat orqanları ilə birlikdə əməyin mühafizəsi və təhlükəsizlik texnikası, əmək qanunvericiliyi üzərində inzibati-təsərrüfat orqanları tərəfindən nəzarətə riayət edilməsi ilə bağlı vəzifələrin həllində özünü göstərirdi. Hətta bu müdafiə funksiyası sosial-məişət məsələlərinin həlli kimi daha ümumi funksiyanın məzmununda ”əriyirdi”. Buraya zəhmətkeşlərin sanatoriya-kurort müalicəsi və istirahəti, mənzil və mədəni-məişət quruculuğu,mənzil bölgüsü və şəxsi həyətyanı təsrrüfatın yaradılmasına yardımçı olmaq kimi vəzifələrin həyata keçirilməsi aid idi. Həmkarlar ittifaqlarının sosial təyinatını və sosial rolunun məzmununu təşkil edən başlıca məsələ-işçi qüvvəsini daha faydalı şərtlə satmaq, yəni işçilərin əmək haqqının ədalətli ödənilməsi uğrunda mübarizə kimi başlıca funksiya ümumiyətlə, sovet həmkarlar ittifaqlarının işi olmamışdır.

”Ümumxalq mülkiyyəti”, fəhlələrin və digər işçilərin ”öz istehsalının sahibi olması”, ”fəhlələrin və kəndlilərin dövləti” haqqında təbliğatçı söhbətlərin yer tutması, dövlət onsuz da ”zəhmətkeşlərin durmadan artan rifahı üçün hər şeyi edir” kimi söhbətlər həmkarlar ittifaqlarının öz üzvlərinin əmək haqqını artırmaq uğrunda mübarizəsini qeyri-mümkün edirdi. Həmkarlar ittifaqları öz başlıca vəzifələri əvəzinə sosial roluna qətiyyən uyğun olmayan fəaliyyətlə məşğul olmağa, əsas funksiyası necə deyərlər, kütləvi-istehsalat və iqtisadi iş hesab olunurdu. Bu funksiya sosializm yarışının, ixtiraçılar və səmərələşdiricilər hərəkatının təşkilində, elmi-texniki cəmiyyətlərin və istehsalat müşavirələrinə rəhbərlik etməkdə, həmkarlar ittifaqlarının nümayəndələrinin xalq təsərrüfatı planlarının işlənib hazırlanmasında və onların reallaşdırılmasında həyata keçirilirdi.Həmkarlar ittifaqları tərbiyəvi və mədəni-kütləvi işə böyük diqqət yetirməli idilər. Bu işin konkret istiqamətləri belə idi: mühazirə təbliğatının, əyani və şifahi təşviqatın, ictimai-siyasi mühazirələrin, əmək qabaqcıllarının, sovet elminin və texnikasının nailiyyətlərinin əyani təbliğinin təşkili, klub-dərnək işinin, əmək kollektivlərində bədii özfəaliyyətin inkişafı, bədii özfəaliyyətin ümumittifaq baxışının keçirilməsi, həmkarlar ittifaqları şəbəkəsinə rəhbərlik, tələbələrin, yeniyetmələrin və uşaqların istirahət dövründə asudə vaxtının təşkili, kütləvi bədən tərbiyəsi və idman işinin təşkili, turist-ekskursiya fəaliyyətini həyata keçirmək və s.

Sosializm dövlət quruluşunun tənəzzülündən və radikal sosial-iqtisadi və siyasi islahatlar yolunda ilk addımlar atıldıqdan sonra vəziyyət kökündən dəyişdi, bazar sosial-iqtisadi sisteminə və demokratik ictimai-siyasi quruluşa keçid başladı.

Azərbaycan Respublikası da demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf yolu seçmişdir. Dövlətimizin sosial siyasəti insanın ləyaqətli həyatını və azad inkişafını təmin edən şəraitin yaradılmasına, ölkədə sosial institutların, o cümlədən həmkarlar ittifaqlarının inkişafı və möhkəmləndirilməsinə geniş imkanlar açmışdır.

Sosial-humanist funksiyaların həyata keçirilməsində həmkarlar ittifaqlarının rolu müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş zəruri hüquqlar və azadlıqlar həmkarlar ittifaqlarına bir sosial institut kimi müqavilələr və danışıqlar sistemi vasitəsilə əmək şəraitinin yaxşılaşdırılmasına, iqtisadi siyasətin müəyyənləşdirilməsində iştirakına, daha dəqiq deyilsə, məşğulluğun, əməkçi insanların sosial müdafiəsinin, əmək haqqının ədalətli müəyyənləşdirilməsində səriştəli siyasət aparmasına imkan verir.Digər tərəfdən, ”Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanunu ölkədə həmkarlar ittifaqları təşkilatlarının işinin müasir tələblər, sivilizasiyalı dövlətlərdə təşəkkül tapmış sosial institutların fəaliyyəti səviyyəsində qurulması üçün çox önəmli dövlət sənədidir.

Mövcud reallıqlar göstərir ki, həmkarlar ittifaqlarının sosial proseslərdə iştirak mexanizmlərinin təkmilləşdirilməsi son dərəcə aktualdır.

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin AHİK-in I qurultayına ünvanladığı təbrik məktubundan oxuyuruq. ”Yeni mərhələdə həmkarlar ittifaqları əmək adamlarının kütləvi və müstəqil təşkilatına çevrilərək, onların iş şəraitinin yaxşılaşdırılması, əməyin təşkili, iqtisadi hüquqlarının qorunması, sosial müdafiə problemlərinin həll edilməsi yolunda daha böyük əzmlə çalışmalıdır”.

> "Vəzifə insana heç nə vermir, sadəcə olaraq səlahiyyət verir.
> Qalan hər şey onun ağlından, zəkasından, biliyindən, mədəniyyətindən asılıdır".
>
> ***Heydər Əliyev***

Ulu öndərin tövsiyyələrini həyata keçirmək üçün həmkarlar ittifaqları aşağıdakı təzahürlərə daha ciddi əməl etməlidirlər:

- cəmiyyətin sosial-iqtisadi inkişafının əsas aspektlərində (məsələn, yaşayış minimumunun,insanların həyatının sosial standartlarının müəyyənləşdirilməsində) situasiyanı müstəqil qiymətləndirmək;
- cəmiyyətin inkişafı və həyatının ən mühüm problemləri üzrə həmkarlar ittifaqlarının mövqeyini demokratik, açıq və aşkarlıqla bildirmək;
- sosial-iqtisadi problemlərin həllində hökumətin qərarlarına alternativ həll variantlarını irəli sürmək;
- cəmiyyətin sosial-iqtisadi və mənəvi inkişafının əsas məsələləri üzrə özünün müstəqil platformasını, proqramlarını müstəqil işləyib hazırlamaq;
- öz strukturunu və kadr məsələlərinin həlli işini müstəqil müəyyənləşdirmək.

Hesab edirəm ki, bu prinsiplərə ciddi yanaşılması bu gün çox aktualdır.Çox təəssüf ki, artıq həmkarlar ittifaqlarının mövcudluğuna ehtiyac olmaması mülahizələri səslənməkdədir. Bu məsələ ətrafında polemikaya girməyi lazım bilməyərək onu demək istəyirəm ki, həmkarlar ittifaqlarında çalışan kadr və fəallar məsuliyyətini dərk edərək Ulu öndərin dediyi kimi ”daha böyük əzmlə çalışmalıdır”.

Ona görə həmkarlar ittifaqı üzvləri özlərinə rəhbər seçərkən çox ciddi olmalıdırlar. Seçdikləri şəxslər kifayət qədər yüksək qeyri-formal nüfuza, liderlik keyfiyyətlərinə malik olmalıdırlar.

Təcrübə göstərir ki, insanlar əsasən istəyirlər ki, onların lideri müstəsna olaraq, təşkilatın məqsədlərinə nail olmaq prosesinə istiqamətlənmiş, yalnız və yalnız texnokratik yönümlü peşəkar olmasın, hər şeydən əvvəl, ”insani simalı”, ruhən xeyirxah hisslərin və keyfiyyətlərin bütün ahəngdarlığına malik olsun.

Lider ətrafdakılara, başlıca olaraq, iki sosial-psixoloji kanalla təsir göstərir: a) nüfuz vasitəsi ilə (liderin öz vəziyyəti, təcrübəsi, səriştəsi, təhlili və s.); b) xarizmatik xüsusiyyətlər vasitəsi ilə (insaniyyətlik, xoşrəftarlıq, mənəviyyat).Real həyatda bütün bunlar liderin müstəsnalığının könüllü qəbul olunmasını təmin edir ki, bu da onun ardınca getməklə, hərəkətlərini, bütövlükdə davranışını təqlid etməklə xarakterizə olunur.

Lider - sosial təşkilatın mühüm həlqəsidir.Həyatda hər hansı bir insan birliyi yaranırsa, onun strukturunda öz lideri də yaranır. Qrupun funksiyaları artdıqca və onun fəaliyyət sahəsi genişləndikcə, liderlər iyerarxiyası təşəkkül tapır. Liderlik liderin funksiyalarını həyata keçirmək prosesidir. Davamiyyətinə görə bu proses konkret şəraitdən asılı olaraq ya qısa müddətli, ya da davamlı olur.

Liderlik spesifik idarəetmə münasibətləri tipidir, belə ki, insanların davranışına təsir edərək, lider bununla təşkilatda sosial proseslərin gedişinə təsir göstərmiş olur.Lakin inzibati idarəetmədən fərqli olaraq, liderlik təşkilatda tabeçilərin deyil, davamçıların, ardıcıllərin olmasını görmək istəyir. Müvafiq olaraq, inzibati idarəetməyə xas olan ”rəis-tabeçi” münasibətləri ”lider-tərəfdar” münasibətləri ilə əvəz olunur. Liderlik mühitində güc və məcburetmə arzu və ruhlandırma ilə əvəz olunur.

Həmkarlar ittifaqları orqanlarında çalışan rəhbərlərdə bu keyfiyyətlər olarsa, təşkilatın nüfuzunda yüksək olar. Yoxsa ki, pafoslu çıxışlarla özünü reklam edənlər yalnız və yalnız həmkarlar ittifaqının nüfuzuna zərbə vururlar.

Bu yerdə yadıma bir xatirə düşdü. Ulu öndər Heydər Əliyevin komandasının ən sədaqətli üzvü olan Lidiya Rəsulova (1981-1988-ci illər) AHİŞ-in Rəyasət Heyətinin iclasında sahə həmkarlar ittifaqları Respublika Komitələrindən birinin sədri hesabat verərkən pafoslu çıxış edərək işlərin yüksək səviyyədə olduğunu və onun arxasında nazirin olduğunu bildirdi. Rəsulova onu dayandırdı və dedi ”Biz kosmosda yaşamırıq, yerə düş, onsuzda kimin kim olduğunu hamı yaxşı bilir.Həmkarlar ittifaqı təşkilatının rəhbərinin bədbəxtliyidir ki, onun arxasında siravi həmkarlar ittifaqı üzvü yox, nazir, rəis dayanır...”

Həqiqətən də o dövrdən fərqli olaraq biz bu gün açıq cəmiyyətdə yaşayırıq. Kim necə yaşayır, necə işləyirsə onu yaşadığı və işlədiyi yerdə çox yaxşı tanıyırlar....

Ona görə də həmkarlar ittifaqları üzvləri özlərinə rəhbər seçən zaman heç kimdən çəkinməməlidirlər, layiq olanları seçməlidirlər.

Həmkarlar ittifaqı xalqları ”xoşbəxt” edən Lenininin dediyi kimi ”kommunizm məktəbi” yox, haqq-ədalət məktəbidir. Qurani Kərimin Əl-Nisa surəsinin 135-ci ayəsində deyilir ”Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin!”

Əgər həmkarlar ittifaqları üzvüləri haqqı olanları öz təşkilatlarına rəhbər seçsələr heç vaxt həmkarlar ittifaqının üzvü olduğuna görə peşman olmayacaqlar. Prezident İlham Əliyev tərəfindən son dövrlərdə aparılan struktur və kadr islahatları respublikamızda sosial-iqtisadi inkişafı sürətləndirmişdir. İlham Əliyev ölkəmizdə vətəndaş cəmiyyəti institutlarının fəaliyyətində də köklü transformasiya baş verməsini istəyir.

İlham Əliyevin iki il əvvəl AHİK-in 30 illiyinə həsr edilmiş tədbirin iştirakçılarına ünvanladığı məktubda deyilir: ”Müasir inkişafın reallıqları və bu günün çağırışları Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyətində əsaslı dəyişikliklərin aparılmasını, dünya təcrübəsindən faydalanaraq işlərin yenidən qurulmasını labüd edir. Bu mərhələdə həmkarlar ittifaqlarının hüquqlarının ölkə qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq təmin edilməsi və məhdudlaşdırılmaması ən vacib məsələlərdən biridir. Eyni zamanda ölkə iqtisadiyyatının sürətli inkişafı Azərbaycan həmkarlar ittifaqlarından yeni yaradılmış iş yerlərində işçilərin əmək hüquqlarının qorunmasında və sosial problemlərinin həllində əzmkarlıq və qətiyyətli addımlar atmasını tələb edir”.

Məqalənin yazılmasında məqsəd həmkarlar ittifaqlarının nüfuzunun artmasına, onun daha cəlbedici olmasına, yeni qüvvələrin gəlməsinə, son nəticədə həmkarlar ittifaqları rəhbərlərinin idarəetmə subyekti kimi möhkəmlənməsinə xidmət etməkdir.

***Hüseyn Qaraşov***
***sosiologiya elmləri doktoru, professor***

VI YAZI

# Təndir çörəyinin ətri: Unudulmağa qoymayaq!



Elə bir adam tapılmaz ki, kəndlə əlaqəsi olmasın. Orada nənə-babası, dayı-əmisi, xala-bibisi yaşamasın və kəndlə bağlı xatirələri olmasın. Uşaqlığımızın xatirələr toplusunda kəndlərimiz xüsusi yer tutur: səhərdən axşama dağda-yamacda gəzmək, yıxılmaq, irili-xırdalı daşların dizimizi yaralayıb qanatması, şaqqıltı ilə axan çayın kənarında saatlarla oynamaq, gül-çiçəkdən çələng hörmək, axşamçağı çöldən gələn qoyun-quzunu nənəbaba ilə birlikdə qarşılamaq, onları oxşamaq, ən əsası isə nənə dürməyi...

Sonuncu, yəni nənə dürməyinin dadı damaqlardan asanlıqla getməz. Vaxt tapıb süfrəyə əyləşməyən uşaqların qarnını ayaq üstündəcə nənə dürməyi doyurardı. İçərisinə nənələrin öz əlləri ilə hazırladığı pendirdən qoyulan, yedikcə dadından doyulmaz dürmək.

O dürməklərin çörəyi də elə nənələrin zəhməti ilə təndirlərdə bişirilirdi. Biz saat 10-11-də yuxudan oyanıb gözümüzü ova-ova eyvana çıxanda burnumuza təndirdə bişən çörəyin gözəl ətri gələrdi. Bu vaxt anlayardıq ki, nənə təndir salıb bu gün. O təndir ki, sübh çağından salınardı, xəmir gələnə kimi oturuşsun deyə. Hələ çörək bişirməyə başlamazdan əvvəl təndirdə çırtıltı ilə yanan odunun, çır-çırpının ətri ətrafa elə bir ətir yayırdı ki, sübh çağının təmiz havasına sanki daha bir təravət qatırdı. Adam deyirdi, bu ətri ciyərimə elə çəkim ki, oraya hopsun, orada qalsın. Daha sonra bu havaya isti təndirə vurulan çörəyin ətri də qarışanda təsəvvüredilməz bir ətir ətrafı bürüyürdü. Bu, nənələrin zəhmət ətri idi. Onlar qol çırmayıb ailələrinin çörəyini özləri bişirirdi.

Harada qaldı o illər? İndi də kəndlərimiz də var, nənələrimiz də, həmin təndirlər də həyətlərdə, yerindəcə dayanıb. Lakin qapısı açılırmı, o təndirlərə odun salıb yandıran, isidən, qolunu çırmayıb xəmir yoğuran, təndirə bircə lavaş vuran varmı? Bugünkü söhbətimiz el bu barədədir. Gəlin söhbət edək, bəlkə unudulmağa qoymarıq...



## Təndir salaq, çörək bişirək!

Bəli, əvvəllər, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə çörək sexləri tikilməzdən əvvəl qadınlar evin çörəyini özləri bişirərdi. Yaxın qonşular və qohumlar bu işdə bir-birinə köməklik də edərdilər. Bu köməkçilərə iməci deyilirdi. İməcilər 5-6 nəfərdən ibarət olurdu. Hər dəfə bu qadınlardan hansı çörək bişirərdisə, iməcilər yığışıb səhər çağında onlara yollanar və təndirdə işə başlayardılar.

Çörək bişirilən evdə hazırlıq 2-3 gün öncə başlayardı. Əvvəlcə evə un alınardı. Və yaxud buğda vardısa, dəyirmana aparılar, üyüdülər və gətirilərdi. Un hazır oldumu, deməli, çörək bişirmək olardı. Evin xanımı çörək günü üçün bişirəcəyi yeməyi də nəzərdən keçirər, bunun üçün nə isə yoxdursa, bazardan aldırardı.

Axşamdan süfrə, qazan, ləyən suya çəkilər, hazır qoyular. Təndir otağına da nəzər salınar: süpürülər, döşəkcələr çırpılar, dördayaq, oxlov, irəfətə ortalığa gətirilər. Çörək bişirilən gün səhər sübh çağından evin xanımı qalxar və xəmir etmək üçün zirzəmiyə enər. Xəmir ki, yoğuruldu, özünü tutanadək təndir salınar. Təndir oturuşanadək xəmir kündələnər. Elə ki, bir ləyən kündə hazır oldu, xanımlar təndir otağına daxil olar, hər kəs özünə bir yer seçər, əyləşər, dördayaqları qarşılarına qoyar və kündələri açmağa başlayar. Açılıb böyüdülmüş lavaşlar təndir başında əyləşən xanıma verilər, o lavaşı irəfətənin üzərinə sərər, əlini suya vurub, lavaşın bir neçə yerinə vurar ki, təndirə yaxşı yapışsın. Daha sonra isə əyilib irəfətəni təndirin sinəsinə çırpar və xəmir oraya yapışar. Az sonra isə çörək hazır olar, təndirin sinəsindən qoparılıb təndir kənarında hazır çörək üçün salınan süfrənin üzərinə dağınıq şəkildə yığılar ki, istisi o biri çörəkləri yaş etməsin. Bir qədər sonra isə həmin süfrə başında əyləşən xanım qurumuş lavaşları üstüstə yığar, dəstə hazır olandan sonra evdən bir nəfər kişi və ya qadın həmin dəstəni götürüb zirzəmidə çörək üçün hazırlanmış xüsusi yerə səliqə ilə yığar.

Günorta saatlarında ara təndiri salınar. Bu zaman qadınların həm də nahar saatı çatır. Evin xanımı hazırladığı yeməyi təndirə sallayar ki, isinsin. Daha sonra isə ya təndir başında, ya da təndir otağının qarşısında süfrə açılar, iməcilərə yemək verilər, günboyu isə bir neçə dəfə çay içilər. .

Yeməkdən sonra yenə də hər kəs təndir başında öz yerinə keçər və çörəkbişirmə prosesi davam edər. Axşam çağınadək davam edən çörəkbişirmə zamanı bir neçə dəfə təndirə yenidən çır-çırpı salınıb istilik yenilənər və bu zaman xəmir iməcilər tərəfindən kündələnər.

Beləliklə, ailənin bir aylıq çörəyi hazır olur. Hər gün ailə üzvlərinin sayına görə çörək sulanır, suyu çəkiləndən sonra səliqəli şəkildə dördkünc qatlanır və süfrəyə bükülüb, çörəkqabına qoyulur. Növbəti çörəkbişirmə isə xanımlardan kimin evində çörək bitirsə, onun təndirində həyata keçirilir.



## Evdə çörək bişirməyin əhəmiyyəti

Çörəyin evdə hazırlanmasının çox böyük əhəmiyyəti var idi. Birincisi, həyət-bacadakı ağaclarının budanan qol-budağı qurudulub təndir üçün saxlanırdı. İkincisi evin zirzəmisi ruzi bərəkətlə dolu olurdu. Bir tərəfdə un kisəsi, bir tərəfdə hazır çörək evin bərəkəti hesab olunurdu. Əlini atanda çörəyi götürüb sulayıb hazır vəziyyətə gətirə bilirdin.

Digər əhəmiyyəti isə ondan ibarət idi ki, ucuz başa gəlirdi. Təmiz şəraitdə bişirildiyinə əminlik var idi. Bir qonaq gələndə əziyyət çəkib çörək almaq üçün mağazaya getmirdin, evində olan çörəkdən istifadə edirdin. Eyni zamanda əgər buğdanı aparıb dəyirmanda üyüdürdünsə, onun tərkibi də təmiz olurdu sözsüz ki...

Mağazadan aldığımız çörəyin tərkibi nədən ibarətdir? Bunu biz heç vaxt bilmirik. Lakin çörəyi evimizdə bişirəndə, özü də öz əkdiyimiz buğda ilə, onda bilirik ki, unumuz nədir, çörəyimiz nə.



Ardı Səh. 12

Əvvəli Səh. 11

# Təndir çörəyinin ətri: Unudulmağa qoymayaq!

## Harada qaldı o təndirlər, o çörəklər?..

Hazırda kəndlərimizdə çörək bişirənlər olsa da, lakin çox təəssüf ki, bu, çox təsadüfidir. Elə ki, çörək sexləri tikildi, təndirlərin qapısı bağlandı. Ta qadınlar özlərinə əziyyət verib təndir salıb xəmir yoğurmadı, bir-birinə iməci olmadılar. Hazır çörəyi həyat yoldaşları mağazadan aldı və yaxud çörək sexlərinə sifariş edib evlərə daşıdılar və beləliklə də çörək bişirmək unudulmağa başladı.

İndi kənlərdə təndirlərin qapısı bağlı qalıb. Nə təndir salan var, nə çörək bişirən. Bu, çoxəsrlik çörəkbişirmə ənənələrini unutmaqla yanaşı, həm də sağlamlığımızın əldən getməsinə səbəb oldu. Çünki indi ən ucqar kəndlərdə belə qadınlar hərəkətsiz vəziyyətdədir. Evlərdəki paltaryuyan, qabyuyan, ətçəkən, tozsoran maşınlar qadınların hərəkətini əlindən alıb. Üstəlik kənd qadınlarının çörək bişirməyi təxirə salmasını da bunların üzərinə gələndə, onların tamamilə hərəkətsiz qalması sağlamlığa ciddi zərər vurur, eyni zamanda bu hərəkətsizlik artıq çəki almaları ilə nəticələnir.













## Kəndlərdən çörək ətri gəlmir

Kəndin özünəməxsus gözəllikləri var. Qoyun-quzu mələməsi, səhər-axşam mal-heyvanın çölə gedib-gəlməsi, bu zaman kənd yollarındakı mənzərə, təndir salınması, çörək bişirilməsi, evlərdə hana qurulub xalça-palaz, kilim toxunması, bulaq başında qab-qacaq yuyulması, su daşınması, həyət-baca işləri kəndin özünəməxsusluğudur. Təəssüf ki, artıq kəndlər şəhərləşir. Şəhərdə həyat necədirsə, artıq kəndlərdə də elədir. Qadınlar səhərdən axşamadək televizor önündə ya serial izləyir, ya da smartfon telefon əllərində sosial şəbəkələrdə gəzişir. Odur ki, rahat həyatı seçirlər ki, bu kimi vərdişlərinə daha çox zaman qalsın. Lakin düşünəndə ki, bütün bunlar onların sağlamlığı ilə yanaşı, adətlərimizin də üzərindən xətt çəkir, təəssüf etməkdən başqa çarə qalmır.

İndi durub on kənd gəzsən, çətin ki, onların birindən çörək ətrini ala biləsən. Çünki təndirlərin qapısı artıq illərdir ki, bağlanıb. Çörək ətri kəndlərdən perik düşüb. Evlərə çörək mağazalardan daşınır. Çörəyin də qiyməti hər il bir qədər artır. Bu da qadınları yenidən təndirlərə qaytara bilmir. Qiymət artdıqca, ona boyun əyib, alırıq, ala bildikcə, deyirik ki, əşi 10 qəpiklə nə olacaq, ta ki canımız sağ olsun, təndir salıb əziyyət çəkməkdən ki, yaxşıdır.

Beləliklə, qədim adətlərimizə, həm də sağlamlığımıza üz çevirib özümüzə asan, lakin zərərli yol tapırıq. Bu isə həm adət-ənənələrimizin, həm də sağlamlığımızın, eyni zamanda ruzi-bərəkətimizin yox olmasına yol açır.

## Unudulmağa qoymayaq!

Nə qədər ki, gec deyil, həyətlərimizdəki təndir otaqları işlək vəziyyətdən düşməyib, aradabir onlara od salaq, təndiri yandıraq, təzələyək. Aradabir xəmir yoğuraq, iməcilərimizi səsləyək, çörək bişirək. Qoy evimizə bu təndirlərdən çörək ətri ilə yanaşı, ruzi-bərəkət gəlsin. Elə kəndlərimizdən də çörək ətrini ala bilək.

Uşaqlara, nəvələrə sexlərdə bilmədiyimiz formada bişirilən çörəklə deyil, təndirdə öz əlimizlə bişirdiyimiz çörəklə dürmək tutaq. Onların da sağlamlığının qeydinə qalaq.

İnanın, bir neçə il sonra gec olacaq. Onsuz da illərdir, unuda-unuda gedirik. Nəinki çörəkbişirməni, bir sıra adətlərimizin üzərindən xətt çəkmişik. Bax, çörəkbişirmə unutduqlarımız silsiləsindən olan altıncı yazıdır ki, yazıram. Hələ sırada nə qədər də unudulan adətlərimiz var. Belə isə, biz beləliklə hara gedirik? Bu gün övladlarımıza kəndlərlə, nənə-babamızla bağlı danışdığımız maraqlı söhbətləri sabah onlar necə, öz övladlarına danışa biləcəkmi? Biz bu adətləri unutmaqla özümüzdən imtina edirik. Kəndlərdə illər uzunu yaşadılan bütün adətlərdən imtina edirik. Sanki kimlərsə bizi unutmağa sövq edir. Biz isə onların yaratdığı "rahatlığa" boyun əyib, əvəzində özümüzün olanından vaz keçirik. Lakin bunu etməyə bizim haqqımız yoxdur. Çünki ata-babamızdan miras qalan dəyərləri yaşatmaq, gələcək nəsillərə ötürmək bizim vətəndaşlıq borcumuzdur.

Kaş ki geri dönə, unutduğumuz adətləri geri qaytara bilək. Axı onları əsrlər boyu yaşadanlar olub. Biz onlara nə cavab verəcəyik?..

***Mətanət Məmmədova***

# “Problemi şəxsin öz iradəsi ilə təkbaşına həll etməsi...”



**“Narkotik asılılığı olan bir şəxs özbaşına xilas ola bilərmi sualı, bu sahədə çox mürəkkəb bir mövzudur. Narkotik asılılığı həm fiziki, həm də psixoloji bir vəziyyət olduğu üçün, bu problemi yalnız şəxsin öz səy və iradəsi ilə təkbaşına həll etməsi çox çətin və nadir hallarda mümkün olur. Bu, hər bir insanın vəziyyətindən və asılılığın formasından asılıdır, amma ümumilikdə bu proses çox vaxt peşəkar kömək və dəstək tələb edir”. Bu sözləri SİA-ya açıqlamasında Narkotiklər üzrə Vyana QHT Komitəsinin üzvü, ”Gənclərin Anti-Narkomaniya” İctimai Birliyinin sədri Büllur Məmmədova deyib.**



O bildirib ki, Narkotik Asılılığının Psixoloji və Fiziki Aspektlərin bir neçə forması var. Birinci forması fiziki Asılılıq: Narkotik maddələr bədənin kimyəvi balansını dəyişdirir və onlara bədən alışır. İstifadə olunan maddənin növünə və miqdarına görə, şəxs bədənində ciddi fiziki dəyişikliklər yaşaya bilər. Məsələn, bədən narkotik maddə qəbul etmədikdə, tərs reaksiya olaraq ağrılar, tərləmə, əsəbilik, ürək döyüntüsündə artım kimi simptomlar baş verə bilər. Bu, ”çəkinmə əlamətləri” (withdrawal symptoms) adlanır və müalicə olunmazsa, çox zaman psixoloji və fiziki stressi artırır, insanı yenidən narkotik istifadə etməyə təşviq edir.

İkinci forması Psixoloji Asılılıq: Narkotiklər həm də psixoloji asılılıq yaradır. İnsanlar, müəyyən narkotik maddələrin istifadəsini həyatlarını asanlaşdırmaq və ya çətinliklərdən qaçmaq üçün bir yola çevrilə bilər. Zamanla, narkotik istifadə etməklə bağlı emosional və psixoloji bir əlaqə yaranır ki, bu da asılılığı daha da gücləndirir. Narkotiklərdən istifadə etmək yalnız bədənin deyil, həm də zehni və duyğusal vəziyyətin idarə olunması üçün bir vasitəyə çevrilir.

## Özbaşına xilas olmağın çətinlikləri



Özbaşına xilas olmağa çalışan şəxs, bu iki əsas amil - fiziki və psixoloji asılılıq - ilə mübarizə aparmalıdır. Bəzən insanın iradəsi və motivasiyası olsa belə, yalnız öz gücü ilə bu məsələləri həll etmək çətin ola bilər. Narkotiklərdən asılılıq, xüsusilə uzun müddət istifadə edənlərdə, beyin kimyasını dəyişir, və bu da bədənin və ağılın normal işləməsini çətinləşdirir. Bu, müstəqil müalicə etməyi praktik və uğurlu etməyin çətinliyini artırır.

Bundan əlavə, narkotik asılılığından əziyyət çəkən şəxs sosial və emosional təzyiqlərlə qarşılaşa bilər. Bu vəziyyətdə olan insanlar tez-tez depressiya, anksiyete, təklik və ümumiyyətlə emosional çətinliklər yaşayır, və bu hallarda dəstək vacibdir.

## Özbaşına xilas olmağın uğur şansı

Bəzi insanlar özbaşına asılılıqdan çıxmağa müvəffəq ola bilərlər, amma bu çox nadir hallarda baş verir. Belə insanlar, güclü bir daxili iradəyə və motivasiyaya malik olurlar. Bəzi insanlar asılılıqdan kənar qalmaq üçün bir neçə metod tətbiq edə bilər, məsələn:

* Fiziki fəaliyyətin artırılması: İdman, müntəzəm məşqlər fiziki vəziyyəti yaxşılaşdırmağa və beynin ”xoşbəxtlik hormonları”nı sərbəst buraxmağa kömək edə bilər.

* Sağlam həyat tərzi: Yaxşı qidalanma və yuxu rejimi bədənin təbii balansını bərpa etməyə kömək edə bilər.

* Təcrid olunmamaq: İnsanlar, özlərini sosial əlaqələrdən kəsmək və dəstək almaq əvəzinə yalnız izolyasiya etməyə çalışarsa, bu, əlavə çətinliklərə səbəb ola bilər.

## Peşəkar dəstəyin önəmi

Çox vaxt narkotik asılılığı ilə mübarizədə ən təsirli yol peşəkar müalicədir. Psixoterapiya, dərman müalicəsi və dəstək qrupları bu mübarizədə çox əhəmiyyətlidir.

1. Psixoterapiya və Davranış Dəyişiklikləri: Kognitiv davranış terapiyası (CBT) kimi müalicələr, insanın düşüncə və davranışlarını dəyişməyə kömək edərək, narkotiklərə olan istəyi idarə etməyə kömək edə bilər. Bu terapiya vasitəsilə insanlar asılılığın səbəblərini dərk edər və ona qarşı daha güclü müqavimət göstərə bilərlər.

2. Dərman müalicəsi: Bəzi narkotiklərdən asılılıq fiziki asılılığa səbəb olduğu üçün, dərman müalicəsi də bu çətinlikləri azaltmaq üçün istifadə olunur. Məsələn, opioid asılılığında metadon və ya buprenorfin kimi dərmanlar istifadə edilə bilər.

3. Dəstək Qrupları: Anonim narkomanlar kimi dəstək qrupları, şəxslərin təcrübələrini paylaşmalarına, bir-birinə dəstək olmalarına və asılılığa qarşı mübarizədə motivasiya tapmalarına kömək edir”.

”Özbaşına narkotik asılılığından xilas olmaq mümkündür, amma bu çox çətin və yüksək uğur şansına sahib deyil. Narkotik asılılığı fiziki və psixoloji cəhətdən ciddi bir vəziyyət olduğundan, peşəkar dəstək və müalicə ən yaxşı yanaşmadır. İnsanların bu yolda daha çox dəstəyə ehtiyacı var və mütəxəssislər tərəfindən idarə olunan müalicə proqramları daha yaxşı nəticələr verir” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***




# “Tramp Ukrayna münaqişəsi ilə bağlı ”100 günlük plan” ortaya qoyub”

***“ABŞ prezidenti Donald Tramp hələ seçkiöncəsi hakimiyyətə gələcəyi halda 24 saat arzində Rusiya-Ukrayna müharibəsini dayandıracağı ilə bağlı bəyanatlarla çıxış etmişdi”.Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib. O bildirib ki, Tramp hakimiyyətə gəldikdən sonra vəziyyətin onun düşündüyü qədər də asan olmadığını dərk etdiyi üçün müharibənin dayandırılması üçün altı ay vaxt lazım olduğunu dedi: ”İndi isə Rusiya-Ukrayna münaqişəsi ilə bağlı xüsusi nümayəndə təyin edərək ”100 günlük plan” ortaya qoyub. Planın detalları və müharibənin sonlandırılması üçün konkret hansı addımların atılacağı ilə bağlı dəqiq və ətraflı məlumat olmasa da, bir şey aydındır ki, bu heç də asan başa gəlməyəcək.***



İndiki halda müharibənin dayandırılması üçün tərəflərin hər ikisindən maksimum iradə tələb olunur. Hər iki tərəfin bəyan etdikləri şərtlər isə bir-birindən olduqca uzaqdır. Tramp düşünür ki, tərəflərə təzyiq göstərməklə onları müharibəni dayandırmağa məcbur edə bilər. Bu istiqamətdə artıq müəyyən adımların atıldığı da məlumdur. Məsələn, xarici ölkələrə və təşkilatlara maliyyə vəsaitinin verilməsinin 90 gün ərzində dayandırılması ilə bağlı qərarı göstərə bilərik. Bu qərar indiki halda, yəni Konqress tərəfindən hələ Bayden hakimiyyəti dövründə təsdiq olunmuş qərarlara aid edilməsə də, Ukrayna üçün ayrılan maliyyə vəsaiti və silahın ötürülməsi davam etsə də, bir müddət sonra Kiyevi çətin duruma salacağı şübhəsizdir. Eləcə də USAİD və Ukraynaya maliyyə yardımları edən digər təşkilatlarla bağlı qəbul olunmuş qərarlardan da indiki halda ən çox əziyyət çəkən məhz Ukraynadır. ABŞ-ın maliyyə yardımı və silah tədarükü olmadan Ukraynanın müharibəni davam etdirməsi inandırıcı deyil. Çünki indiyə qədər Ukraynaya edilən yardımların ən azı yarısı məhz ABŞ-ın payına düşür. Avropa İttifaqı ölkələrindəki vəziyyət, siyasi və iqtisadi çətinliklər isə ABŞ olmadan onların Ukraynanı maliyyələşdirməsinə imkan vermir”.

Onun sözlərinə görə, Tramp Rusiyaya qarşı da təzyiq rıçaqlarını işə sala biləcəyinin anonsunu verib və açıq şəkildə bəyan edib ki, əgər Rusiya müharibənin dayandırılması və danışıqlara başlanmasına müsbət cavab verməzsə yeni və olduqca ağır sanksiyaların tətbiqi ilə bağlı qərarlar qəbul olunacaq: ”Trampın təklifləri ilə bağlı ilkin məlumatlar ondan ibarətdir ki, Ukrayna Rusiya ərazisində tutduğu torpaqlardan, yəni Kurskdan geri şəkilir. Rusiya bunun müqabilində bir sıra əraziləri geri qaytarır. Saxta referendumla Rusiyaya birləşdirilmiş Luqansk və Donetskin işğal altında olan əraziləri Rusiyada qalır. Amma nə beynəlxaq birlik, nə də Ukrayna həmin əraziləri Rusiya ərazisi kimi tanımır və həmin ərazilərlə bağlı uzunmüddətli diplomatic danışıqlar aparılır. Ukrayna NATO üzlüyü planlarından imtina edir, əvəzində ABŞ və bir sıra Avropa İttifaqı ölkələri Ukraynaya təhlükəsizlik zəmanəti verir və eləcə də Ukraynanın bərpası üçün ABŞ və Avropa İttifaqı tərəfindən maliyyə ayrılır.

Bu planın nə dərəcədə tərəfləri qane edəcəyini söyləmək çətindir. Çünki Ukrayna tərəfi artıq təhlükəsizlik zəmanətlərinə inanmır. Rusiya isə müharibənin dayandırılmasını Ukraynanın Qərb tərəfdaşları hesabına gücləndirilməsi üçün fürsət kimi görür. Odur ki, Trampın nə deməsindən asılı olmayaraq indiki halda müharibənin dayandırılması heç də asan olmayacaq”.

***Söylü Ağazadə***

# Əli Kərimlinin USAİD-lə yeni əlaqələri üzə çıxdı



Birmənalı mövqe ondan ibarətdir ki, xaricdəki antimilli ünsürlər və dağıdıcı müxalifət bu və digər formada müxtəlif xarici ölkələrin xüsusi xidmət orqanları ilə əməkdaşlıq münasibətlərinə malikdirlər. Təbii ki, əlaqələr "salam, sağ ol" münasibətləri üzərində qurulmur. Qarşılığında xaricdəki antimilli ünsürlər yaşadıqları ölkələrdə oturum izni və maddi təminat alırlar, eyni ilə Azərbaycandakı dağıdıcı müxalifət, siyasiləşmiş QHT-lər və media orqanları maddi yardımlar əldə edirlər. Azərbaycan istintaq orqanları tərəfindən aparılan araşdırmalarla sübuta yetirilib ki, ABŞ-ın "Beynəlxalq İnkişaf Agentliyi" (USAID), "Milli Demokratiya Fondu" (NED), "Avropa Demokratiyaya Yardım Fondu" (EED), "Internews", "FreedomNow", "Qlobal Araşdırmaçı Jurnalistika Şəbəkəsi" (Global Investigative Journalism Network), "Amerika Beynəlxalq Təhsil Şurası" (American Councils for International Education), Çexiyanın "Praqa Vətəndaş



Cəmiyyəti Mərkəzi" (PCSC), "People in Need" (PIN), "Avropa İttifaqı Müstəqil Media üçün" proqramı (EU4 Independent Media), "Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu" (EPCSF), "Niderland Helsinki Komitəsi", "Norveç Helsinki Komitəsi", "Avropa Jurnalistika Fondu" (Journalizmfund Europe), "Yeni Demokratiya Fondu" (New Democracy Fund), "Forum 2000", "German Marşal" Fondu və digərləri "Abzas Media" xəbər portalının rəhbərliyinə "demokratik inkişafa dəstək vermək" adı altında böyük məbləğdə pullar ödəyiblər. Eyni maliyyə yardımlarını sözügedən təşkilatlar "Toplum" TV və "Meydan" TV əməkdaşlarına da ödəyiblər. Sual olunur, tanınmayan, heç bir jurnalist kadr potensialı olmayan gərəksiz media subyektinə bu qədər təşkilatın maliyyə vəsaiti ödəməsinə nə ehtiyac var?

Xüsusilə də, USAİD pullarını sağa-sola paylamaqda daha "əliaçıq və xeyirxah" görünür. Lakin Tramp hakimiyyəti ələ aldıqdan sonra bir daha məlum oldu ki, bu təşkilat İlon Maskın da dediyi kimi, nüvə silahından da təhlükəli təşkilatdır.

### USAİD-in cinayətkar təşkilat olduğu sübuta yetirildi

ABŞ Hökumətinin Səmərəliliyinin Artırılması İdarəsinin rəhbəri, "Tesla", "SpaceX" şirkətlərinin və "X" sosial şəbəkəsinin sahibi İlon Mask USAİD-ə qarşı ağır ittihamlar səsləndirib, təşkilatı bioloji silah istehsalının maliyyələşdirilməsində ittiham edib. İ.Maskın "X" hesabında paylaşımında USAİD-i cinayətkar təşkilat adlandırır. Dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərən və illik büdcəsi 72 milyard dollar olan təşkilat daim separatizmin və terrorun, ölkələrdə ictimai-siyasi sabitliyin pozulmasına cəhdlər göstərib. USAİD Ukraynada "narıncı", Gürcüstanda "məxməri", Qırğızıstanda isə "zanbaq" inqilablarının ssenarilərində rol oynayıb. Separatizmin baş qaldırılmasında ABŞ dövlət katibinin siyasi məsələlər üzrə keçmiş müa-




vini Viktoriya Nuland xüsusi rol oynayıb. Onun maliyyəsi ilə Azərbaycana qarşı da səsləndirilən iddialar saysız-hesabsızdır. ABŞ Dövlət Departamenti Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirdi və bütün bu işləri Viktoriya Nuland tərəfindən qurulmuş şəbəkə idarə edirdi. İndi isə bəlli olur ki, USAİD-in dünya mediasında Azərbaycana qarşı gedən kampaniyada xüsusi rol oynayıb. Xüsusilə də, " USAİD tərəfindən "Politico", "Azadlıq" və Bibisi" radioları, eləcə də və "BBC" USAİD tərəfindən ciddi maliyyə dəstəyi göstərilib. Məhz aldıqları maliyyə yardımları qarşılığında sözügedən media orqanları Azərbaycana qarşı qərəzli, heç bir əsası olmayan və şərə, böhtana söykənən informasiyalar yayıblar. Hətta "BBC" hazırda Bakıda həbsdə olan erməni separatçı Ruben Vardanyanı dəstəkləyirdi və hətta onu "Hard Talk" verilişinə dəvət etmişdi. ABŞ prezidenti D.Tramp bildirib ki, ABŞ Demokrat Partiyası haqqında müsbət məqalələrə görə USAİD-dən 8 milyon dollar alıb: "Görünür, USAİD və digər agentliklərdə milyardlarla dollar oğurlanıb, bunların böyük hissəsi demokratlar haqqında gözəl hekayələr yaratmaq üçün saxta mediaya "rüşvət" verilib. Görünür, "Politico" 8 milyon dollar alıb".

### USAİD-in Azərbaycan müxalifəti ilə geniş iş birliyi

Araşdırmalar əsasında məlum olur ki, USAİD ayırdığı maliyyə vəsaiti hesabına Azərbaycanda geniş təxribatçı dəstə yarada bilib. Artıq onların müəyyən kəsimi barədə yuxarıda şərhimdə qeyd etdim. Digərləri isə siyasi müxalifət partiyaları və onların başbilənləridir. Hansı ki, USAİD-in ayırdığı pullara həvəslənərək ölkəmizdə qarşıdurma, pozuculuq aktları törətməyə cəhdlər göstəririrlər. Daha doğrusu, hələ 2012-ci ildə Azərbaycanda keçirilən "Eurovision" mahnı müsabiqəsi, daha sonra İslam Həmrəylik və Avropa oyunları ərəfəsi, nəhayət, COP29 konfransı dövründə Əli Kərimli, Cəmil Həsənli və onların ətrafında olan trollar ölkəmizin maraqlarına qarşı hər cür çirkin vasitə və üsullardan istifadə etməkdən, tədbirlərin uğurla başa çatmasına əngəllər yaratmaqdan çəkinməmişlər. Bununla yanaşı müxalif dağıdıcı ünsürlər saxta məlumatlar hazırlayaraq USAİD vasitəsi ilə bəzi beynəlxalq media orqanlarına çatdırmış və onlar Azərbaycanla bağlı çirkin kampaniya aparmışlar. Əli Kərimli öz maddi imkanlarının əsas hissəsini USAİD-dən aldığı maliyyə vəsaiti hesabına təmin edib. Ümumilikdə, son 3 il ərzində 57 min 350 ABŞ dolları qrant aldığı barədə ortada müvafiq sənədlər mövcuddur. Bu fakt onu təsdiq edir ki, Ə.Kərimlinin COP29 konfransı əleyhinə danışdıran USAİD-in ayırdığı maliyyə vəsaiti olub.

***İLHAM ƏLİYEV***



## FELYETON

# Təhsil məsələləri

**Vaxtilə maarifpərvər insanlar əziyyət çəkib məktəb açmaq, camaatı savadlandırmaq istəyəndə görəsən düşünərdilər ki, vaxt gələcək məktəblərin sayı-hesabı olmayacaq. Və hələ üstəlik təhsildə necə yeniliklər baş verəcək... Elə bir yenilik ki, heç düşünsəydilər, ağıllarına belə gəlməzdi. Bir neçəsini sadalayaq, onların da ruhu xəbər tutsun ki, təhsildə yenilik necə olur.**

İndi elə bir təhsil sistemi yaradılıb ki, dərs ili bitməmiş imtahanlar başlayır. Məsələn, bu dərs ilini götürək. Martın 2 və 9-da buraxılış imtahanları, 4 mayda rus sektorunun şagirdləri üçün Azərbaycan dili imtahanı olacaq. Qəbul imtahanın ikinci mərhələsi (blok imtahanı) may-iyun aylarında keçiriləcək. Nə gözəl, məktəbi bitirməyən şagird həm attestat, həm də ali məktəbə qəbul üçün elə dərs ilinin içindəcə imtahan verir. Hara qədər oxumusan, ora qədər, elə onları bilsən, kifayətdir.

Martda imtahandan sonra, dərsə gələ də bilərsən, gəlməyə də. Məktəb direktorları sağ olsunlar, ötüşdürəcək. Amma orası var ki, valideynin əli gərək bir az cibində olsun.

Elə ki, bu dərs ili getdi, o biri gəldi, yenə olacaq şeylər yenidən başlayır. Məsələn, elə birinci sinifdən başlayaq. Uşağı məktəbə ilk dəfə gedən valideyn əməllibaşlı kisənin başını açmalıdır. Məktəbli forması, ləvazimatı, bunlar bir yana, üstəgəl bunun bayramları, müəllimlər günü, 8 martı var.

Sosial şəbəkələrdə valideyn qrupları var, burada təhsil məsələləri xüsusilə müzakirə olunur. Məsələn, müəllimlər gününə neçə manatdan yığaq, ay qızlar? 8 marta nə edəcəyik?..

İbtidai sinfi bitirəndə lap dəsgah olur. Restoran, kafelər bağladılır, uşaqların ibtidai təhsili bitirməsi qeyd olunur. Onların əziyyətini çəkən müəllimlərin əməyi isə bu dəfə daha yüksək qiymətləndirilir. Daha sonra fotolar, videolar, sosial şəbəkələrdə paylaşılanlar... Və sair. Müəllim ona deyərəm ki, bax bu paylaşım hissədə özünü qoruya bilsin ki, sabah elin dilinə söz olmasın.

Daha sonra uşaqlar yuxarı siniflərə qədəm qoyur, təbii ki, dərslər əvvəlkindən beş qat çətinləşir. Çünki yeni təhsil sistemi əvvəlkilərə bənzəmir. Uşaqlar XXI əsrin uşağı olduğu üçün təhsil də XXI əsrin təhsilidir. Bu dəfə repetitorlara ibtidai siniflərdən daha çox ehtiyac olur. Valideynlər qapı-qapı, ev-ev gəzib uşaqları üçün yaxşı müəllim tapmağa çalışır.

Bu repetitor məsələsinə də son illər o qədər yenilik gətirilib ki, artıq sinifdə dərs zamanı müəllim özünə çox əziyyət vermir, çünki dərsdən sonra hazırlıq olur, dərindən öyrənmək istəyən şagird əlbəttə ki, buyursun hazırlığa.

Daha sonra da yenə dərs ili bitməmiş imtahanlar başlayır. İmtahandan sonra da nə baş verir, yazdım, siz də oxudunuz.

Təhsil məsələsi belədir ki, yeniliyi sevir. Yenilik də bizdə, istənilən qədər. Odur ki, uşaqlarımız çox savadlı, həm də dünyagörüşlü olur.

Allah rəhmət etsin maarifpərvər insanlara, təməlini qoyduqları məktəblər bax indi belə sürətlə irəliyə doğru addımlayır. Hələ mən elə-belə səthi yeniliklərdən söhbət açdım. İnşallah, ölmərik, qalarıq, xırdalıqları da xırdalayarıq.

***Mətanət Məmmədova***

# Dmitri Solonnikov: “Paşinyan Trampdan heç nə qopara bilmədi və Makrondan kömək istəməyə getdi”

## "Ermənistan və Ukraynanın hazırkı rəhbərliyi USAİD və Soros Fondu tərəfindən maliyyələşdirilən bir layihədir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*





***Müasir Dövlət İnkişafı İnstitutunun (Rusiya) direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində Ermənistanın baş nazirinin ABŞ-a çoxgünlük səfərini və Amerika səyahətindən dərhal sonra Fransaya qəfil səfərini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***



***- Dmitri Vladimiroviç, Ermənistanın baş naziri Nikol Paşinyan işgüzar səfəri çərçivəsində bir neçə gün ABŞ-da olub. Baş nazirin saytındakı məlumata görə, o, ştatlarda onlarla görüş keçirib. O, Donald Trampla ibadət səhər yeməyində iştirak edib, vitse-prezident Vens, konqresmenlər, erməni icmasının nümayəndələri, dini liderlər və s. Ümumiyyətlə, gündəm son dərəcə zəngin və çoxşaxəli idi. Onun məqsədi nədir?***

- Nikol Paşinyanın siyasi məqsədi Ermənistanı Qərbin gündəminə uyğun formatlaşdırmaq, eləcə də şəxsi hakimiyyətini saxlamaqdır. Amma bütün bunları kimsə ödəməlidir. Ermənistan və Ukraynanın hazırkı rəhbərliyi USAİD və Soros Fondu tərəfindən maliyyələşdirilən bir layihədir.

Ermənistan və Ukrayna indi oxşar vəziyyətdədir. USAİD ləğv edildikdən sonra onlar öz hökumətləri üçün başqa maliyyə mənbələri axtarmalıdırlar. Paşinyanın hökumət maliyyəsi əhəmiyyətli dərəcədə kəsilir və onun ABŞ-dan əhəmiyyətli dəstəyi təhlükə altındadır. Onun şəxsi "səhmlərinin" qiyməti düşür. Və problemlərini həll etməsə, gələcəkdə Ermənistanda hakimiyyətə başqası gələ bilər.

ABŞ-da hakimiyyətə gələn Donald Tramp Amerika büdcəsini mənimsəyən, müxtəlif ölkələrin müxtəlif rejimlərinə maliyyə göndərən strukturlarda korrupsiyaya qarşı mübarizə aparmağa başladı, hansı ki, onlar öz korrupsiya sxemlərindən istifadə ediblər.

Paşinyan hökumət rəsmiləri ilə görüşdə Ermənistanın Baydenin dövründə İrəvan və Vaşinqton arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası prizmasından Trampın yeni administrasiyası ilə əməkdaşlığa hazır olduğunu bəyan edib. Və əslində o, görüşdüyü hər kəsdən əlaqə qurmağa kömək etməyi xahiş etdi. Başa düşmək lazımdır ki, Bayden dövründə ABŞ-ın Ermənistanla imzaladığı bütün sənədlər müəyyən qədər Trampı maraqlandıracaq. Amma reallıqda onu yalnız bu və ya digər ölkə ilə qarşılıqlı əlaqənin ABŞ-a hansı faydası və bu ölkənin ABŞ-a nə verə biləcəyi maraqlandıracaq.

Düşmənləri tərəfindən rejimlərin qurulduğu ölkələrdə Trampın yalnız bir marağı var: bu ölkələrin nümayəndələri gəlib ABŞ daxilində bu ölkələrə bu cür yardım təşkil edənləri Amerikanın yeni hakimiyyət orqanlarına təhvil verə və korrupsiya sxemlərindən, bu pulların necə oğurlandığından danışa bilərlər. Tramp üçün bu vacibdir, çünki bu, amerikalı vergi ödəyicilərinin puludur, ABŞ-ın oğurlanmış büdcəsidir. Bu cür korrupsioner layihələrdən əsas faydalananlar ABŞ liberal isteblişmentinin nümayəndələri olub. Əgər Ermənistan və Ukrayna liderləri öz himayədarlarını və maliyyəçilərini Amerikanın yeni rəhbərliyinə təhvil verməyə hazırdırlarsa, bu, Vaşinqtonun İrəvan və Kiyevlə danışması üçün əsas olacaq. Amma, məsələn, Ermənistanın baş naziri ABŞ-a gələrək "bizə kömək edin, biz hələ çox zəifik" deyib, davamlı maliyyə tələb edirsə, Tramp administrasiyası bunda maraqlı deyil. Əgər Paşinyan kuratorlarından birindən imtina etsəydi və korrupsiya sxemlərindən danışsaydı, o zaman Tramp administrasiyası ilə razılığa gələ bilərdi. Əks halda, o, açıq-aydın heç nə əldə etməyəcək.





Ermənistan mətbuatında yayılan məlumatlara əsasən, baş nazir bütün məqsədlərinə nail olmadan Ermənistana qayıdıb, çünki o, ABŞ-da özünü düzgün aparmayıb.

Ermənistanın baş naziri erməni icmasının nümayəndələri və dini strukturların nümayəndələri ilə də görüşüb.

Aydındır ki, dövlət başçısının xarici səfərlər zamanı ictimaiyyət və diaspor nümayəndələri ilə görüşü adi bir təcrübədir. Amma bu halda Paşinyanın məqsədi, təbii ki, onların dəstəyini təmin etmək idi, çünki həm ABŞ, həm də Fransada icmalar Konqresə və digər dövlət hakimiyyəti institutlarına müraciət edən lobbi strukturlarıdır. Ona görə də soydaşları ilə görüşərkən onların lobbi alətlərini öz hökumətinin xeyrinə işə salmağa çalışırdı. Biz görürük ki, Ermənistanın maraqlarını müdafiə edən əvvəlki lobbiçilər artıq həbsdədirlər. Bu yaxınlarda erməni maraqlarının bədnam lobbiçisi, indi keçmiş senator Robert Menendesə korrupsiyaya görə 11 il həqiqi cəza verildi. ABŞ-dakı dini strukturların da əhəmiyyətli əhəmiyyəti və təsiri var.

***- Atlantik Şurada çıxış edən Paşinyan ki, "Ermənistan indi yol ayrıcındadır və bu, ölkəmiz üçün çox vacib dövrdür". Onun sözlərinə görə, ABŞ-ın Ermənistan Respublikasına dəstək verməsinin ən yaxşı yolu "Cənubi Qafqazda sülhün əldə edilməsi gündəliyini ABŞ-ın siyasi quruluşunun prioritetləri siyahısına daxil etməkdir". O, Trampı Cənubi Qafqaza Ermənistan tərəfinə çəkməyə və yenidən ABŞ-ın regionda mövcudluğunu təmin etməyə çalışır?***

-Burada Paşinyanın hansı vasitələrdən istifadə etdiyini anlamaq lazımdır. Anlayır ki, sülhdən danışmaq müsbət söhbətdir. Tramp indi müxtəlif regionlarda sülh bərqərar etməyə çalışan lider kimi qəbul edilir. Beləliklə, Ermənistanın baş naziri Trampa Cənubi Qafqazda da sülhməramlı ola biləcəyi fikrini satmağa çalışır.

Amma Tramp Cənubi Qafqazla maraqlanırsa, bu, sırf iqtisadi baxımdan olacaq. Baxın, Trampın Qəzza zolağına nəzarəti ələ keçirmək və bütün fələstinliləri qovmaq fikri biznes layihəsidir. Orada bahalı otellər və butiklər tikilsə, bu "uğurlu layihə" olacaq. Ukraynadan isə nadir torpaq elementləri, yataqları götürəcək, əvəzində deyir ki, sizin üçün sülh təmin edəcəm. Ermənistanla eyni potensial yanaşma: əgər sizinlə məşğul olmağımızı istəyirsinizsə, əvəzində dəyərli bir şey təklif edin, lakin Bayden administrasiyası ilə strateji tərəfdaşlıq haqqında imzalanmış "kağız parçası"nı xatırlatmayın.

***- Belə çıxır ki, indi Yerevan üçün Bayden administrasiyasının əsasını qoyduğu Ermənistan-ABŞ-Aİ formatı dağılıb?***

- Bu gün deyə bilərik ki, ABŞ-ın əvvəlki administrasiya dövründə iştirak etdiyi istənilən formatlar ən azı dondurulub. ABŞ-ın Tramp dövründə xarici siyasəti hələ yenicə formalaşmaqdadır. Ermənistan isə şübhəsiz ki, bu prioritetlər siyahısında heç də ilk yerlərdə deyil.

***- Paşinyan ABŞ-dan qayıdandan dərhal sonra Fransaya getdi. Rəsmi gündəlik süni intellekt sammitində iştirak, həmçinin prezident Makronla görüşdür. Vaşinqtonun İrəvana dəstəyinin tərəddüd etdiyi indiki şəraitdə o, Makrondan daha çox dəstək almaq üçünmü ora gedib?***

-Bəli, çünki Ermənistanla ABŞ, ABŞ və Avropa arasında münasibətlərin gələcəyi ilə bağlı heç bir anlayış yoxdur. Artıq aydındır ki, böyük ehtimalla ABŞ və Avropa arasında vahid siyasət olmayacaq. Görünür, Paşinyan Trampla o qədər də uğur qazanmayıb və Makronla danışıqlara gedib, çünki İrəvan hesab edir ki, Ermənistan hakimiyyətini dəstəkləməklə yaranan maliyyə boşluqlarını kimsə doldurmalıdır. Paşinyan ancaq Makrona arxalana bilər və ondan daha çox pul və silah istəyə bilər. Bunun müqabilində o, bölgədə daha çox fransız iştirakını təklif edəcək. Bundan başqa, ABŞ, görünür, Ermənistan ordusunun islahatlarında iştirakdan imtina edir, bu vəzifə də daha çox Avropanın çiyninə düşəcək.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
12 fevral
2025-ci il

# Nikahdan əvvəl alınmış ev ər-arvad arasında bölünə bilər?



***Nikahdan əvvəl alınmış ev satılıb və yeni ev alınıb. Bu ev ər-arvad arasında bölünə bilərmi? Bölünmə prosesi necə gedir? SİA məsələ ilə bağlı hüquqşünasların fikirlərini öyrənib.***

**Vəkillər Kollegiyasının üzvü Paşa Səfərov:** ”Nikahdan əvvəl alınmış ev satılıbsa və nikaha girəndən sonra, yeni nikah dövründə yeni ev alınırsa, burada öncə məhkəmə tərəfindən müəyyən olunur ki, həmin nikah dövründə alınan ev öncə tərəflərin birinə məxsus olan evin satılması nəticəsində alınıb, yoxsa yox. Bu, müəyyən olunmalıdır. Bunu da həmin şəxsin özü sübuta yetirməlidir. Bu sübut nəticəsində bununla bağlı Ali Məhkəmənin ər-arvadın ümumi əmlakının bölünməsi ilə bağlı mübahisələrdə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında qərarı var. 12 mart 2024-cü il qərarıdır. Həmin qərarda da üçüncü bənddə açıq-aşkar göstərilir ki, bunu tərəf sübut etməlidir. Sübut etməlidir ki, həqiqətən də, öncə satılan evin pulu yeni alınan evə sərf edilib. Bu, bir az çətin sübutdur. Ancaq satılan evlə alınan evin arasındakı tarix, satılan evlə alınan evlərin dəyəri və bu kimi hallar şəxs tərəfindən sübuta yetirməlidir. Əgər sübuta yetirilsə ki, yeni alınan ev nikahdan öncə alınmış evin pulu ilə alınıbsa, onda o, bölünmə prosesinə getmir. Kimin adına alınıbsa, onun adında qalır. Məsələn, ev əvvəl qadının adına olub, sonradan satılıb. Nikah dövründə yeni ev alınıb. Bu qadının adına alınıbsa, elə qadının adında da qalır. O evdən kişiyə pay düşmür. Əgər əvvəlki ev satılıb və nikah dövründə yeni ev kişinin adına alınıbsa, qadın onda sübut edir ki, həqiqətən də, o evin alınması qadına məxsus evin satılması ilə alınıb. O zaman o ev də qadının mülkiyyətində qalır. Baxmayaraq ki, kişinin adınadır, kişiyə pay düşmür.



**Hüquqşünas Əkrəm Həsənov:** ”Bu məsələ işin hallarından asılıdır. Əgər sübut olunubsa, yeni alınan ev birgə nikah dövründə alınmış evdir, kişinin adınadırsa, kişi sübut etsə ki, bu, məhz əvvəlki evini satıb həmin pulla alıb, o zaman bu, çətin məsələdir. Amma praktikada kişilər adətən bunu sübut edə bilmirlər ki, məhz o pulla alıblar. Onu sübut etmək çətindir. Həmin pul bank qalmışdısa, bank hesabındakı pulla da alıbsa, o zaman sübut edə bilər. Bu məsələ işin hallarından asılıdır. Burada ümumi demək olmaz ki, məhz belə olacaq, ya da yox. Konkret baxmaq lazımdır”.



***Söylü Ağazadə***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## “Qalatasaray” polşalı futbolçunu transfer etdi




İstanbulun ”Qalatasaray” klubu heyətinə yeni futbolçu cəlb edib. ”Cimbom”un rəsmi saytında yer alan məlumatda deyilir ki, polşalı futbolçu Pzemislav Frankovski Fransa ”Lans”ından Türkiyə klubuna keçib. Polşalı yarımmüdafiəçi yeni komandasında mövsümün sonuna qədər icarə əsasında oynayacaq. Onun bu müddətdə qazancı 950 min avro olacaq.

Müqavilədə satınalma bəndi də var. Qeyd edək ki, 29 yaşlı futbolçu bu mövsüm ”Lans”da 21 oyun keçirib, 5 qol vurub və 2 məhsuldar ötürmə edib.

## Dərmandan zəhərlənmə hansı hallarda baş verə bilər?

### *HƏKİM AÇIQLADI*



”Tibbdə bir dərman intoksikasiyası var, yəni, dərmandan zəhərlənmə, bir də dərmana qarşı allergik reaksiyalar var. Allergik reaksiyalar bütün dərmanlardan ola bilər. Hər kəsdə olmasa da bir çox insanlarda bu çox rast gəlinən bir hadisədir”. Bu sözləri SİA-ya açıqlamasında həkim terapevt Sübhan Hacıyev deyib. Onun sözlərinə görə, amma dərman zəhərlənməsi bir dərmanın sutkalıq terapevtik dozasının ciddi şəkildə aşılması nəticəsində baş verir: ”Məsələn, bir tabletdən gündə 3 dəfə içilirsə, və yaxud da içilməlidirsə, burada dərman dozası aşılırsa, yəni, 1 tabletdən gündə 3 dəfə deyil və 1 tabletdən gündə 6-7 dəfə olursa təbii ki burada artıq dərman zəhərlənməsindən söhbət gedir və bu dərmanın molekulyar tərkibinə bağlı orqanizmə verdiyi təsirlər də fərqli olur”. Sübhan Hacıyev sözlərinə belə davam edib: ”Dərman zəhərlənmələri daha çox qaraciyər, böyrəkləri yüklədiyi üçün zədələyir, eyni zamanda beyin-qan dövranına da mənfi təsir göstərir.

Bu cür xəstələr ilk olaraq təcili tibbi yardım şöbələrinə müraciət etməlidirlər. Çünki bu cür xəstələrin mütləq şəkildə nə qəbul etdiklərinin antidiotları vurulmalıdır. Yəni, bir dərman istifadə olunub və ona tam əks təsir göstərən digər dərman istifadə olunmalıdır, mədə-bağırsaq traktı yuyulmalıdır və xəstələr yaxşı olar ki birbaşa toksikoloji mərkəzə müraciət etsinlər. Çünki bu cür xəstələrin ilk 24 saatdan bir neçə günə qədər xəstəxanada olmaları şərtdir”.

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**